HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*29 fevral 2016-cı il*

*№004 (18)*

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## AZƏRBAYCAN, GÜRCÜSTAN, TÜRKİYƏ XİN-NİN BAŞÇILARININ ÜÇTƏRƏFLİ GÖRÜŞÜ KEÇİRİLİB

Gürcüstan XİN-nin məlumatında bildirilir ki, Gürcüstan, Azərbaycan və Türkiyənin XİN-nin başçıları Bakı-Tbilisi-Qars dəmir yolu magestiralını tarixi layihə adlandırıblar.

Məlumatda qeyd olunur ki, hər üç ölkənin XİN-nin başçıları BTQ dəmir yolunun Gürcüstan hissəsinə baş çəkərək, tikinti işlərinin gedişi ilə tanış olmuşlar.

“Bu doğrudan da tarixi əhəmiyyətli layihədir. Hər üç ölkə regionlararası münasibətlərin inkişafına yeni təkan verməsi üçün bu layihəyə çox böyük resurslar xərcləyir. Bu, bizim ölkələrimizin inkişafı üçün vacibdir. Təkcə Gürcüstan hissəsinin tikintisinə 700 milyon dollardan artıq vəsait yönəldilib, layihənin başa çatmasından sonra burada 1400-dən artıq adam çalışacaq. Bundan başqa əlavə iş yerləri açılacaq” – Gürcüstan XİN-nin başçısı Mixail Dzanelidze bəyan edib.




BTK dəmir yolu Gürcüstan-Azərbaycan-Türkiyə hökumətlərarası sazişi əsasında inşa olunur. Onun istismara verilməsi cari ilin ikinci yarısına planlaşdırılıb.

Azərbaycan dəmir yolunun Gürcüstan hissəsinin tikintisi üçün 775 milyon dollar məbləğində kredit ayırıb.

BTQ dəmir yolunun illik buraxıcılıq qabiliyyəti 17 milyon ton yük təşkil edəcək. başlanğıc mərhələsində bu göstərici bir milyon sərnişin və 6,5 milyon ton yük səviyyəsində olacaq.

## GÜRCÜSTAN İQTİSADİYYAT NAZİRİ TÜRKİYƏDƏ İŞGÜZAR SƏFƏRDƏ OLUB

Gürcüstan baş nazirinin müavini, iqtisadiyyat və sabit inkişaf naziri Dmitri Kumsişvili Türkiyədə işgüzar səfərdə olub.

İqtisadiyyat nazirliyinin məlumatına görə, gürcü nazir səfər çərçivəsində Türkiyənin iqtisadiyyat naziri Mustafa Elitaşla görüşüb. Görüşdə ikitərəfli ticarət-iqtisadi münasibətlərin dərinləşdirilməsi məsələləri müzakirə edilib.

Gürcüstan baş nazirinin müavininin səfəri çərçivəsində Türkiyə xarici iqtisadi əlaqələr kollegiyasının təşkilatçılığı ilə aparıcı türk şirkətlərinin rəhbər şəxsləri ilə Gürcüstan iqtisadiyyat və sabit inkişaf nazirliyinin görüşü keçirilib. Tədbiri Gürcüstanın Türkiyədəki səfirliyi və Gürcüstanın İstanbuldakı baş konsulluğu da dəstəkləyib.

Dmitri Kumsişvili Türkiyənin biznes nümayəndələrini Gürcüstanda iqtisadiyyatın və xarici investisyanın həvəsləndirilməsi istiqamətində mövcud olan vəziyyət və islahatlarla tanış edib.

Dmitri Kumsişvili Türkiyənin müxtəlif ali təhsil müəssisələrində təhsil alan gürcü tələbələrlə də görüşüb.

FEVRALIN İKİNCİ ÜZÜ VƏ YA YAŞANAN FACİƏLƏR 2

XOCALI SOYQIRIMININ YARATDIĞI DÜŞÜNCƏLƏR BURULĞANINDA 3

RUSİYA SİYASƏTİNİN PƏRDƏARXASI MƏQAMLARI 4

ÖZÜNƏ KÖNÜLLƏRDƏ YUVA QURAN MÜƏLLİM 5

GƏLİN QƏLB QIRMAYAQ 6

SƏYYADIN NƏVƏSİ SAYAT NOVA 7

RUSTAVİDƏ RƏSSAM ƏLİ ƏLİYEVİN FƏRDİ SƏRGİSİ KEÇİRİLİB 8

## GÜRCÜSTAN PREZİDENTİ AZƏRBAYCANA SƏFƏR EDƏCƏK



Gürcüstan prezidenti Georgi Marqvelaşvili mart ayında Bakıya səfər edəcək. Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin yaydığı məlumata görə, Gürcüstan prezidenti Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumunda iştirak edəcək.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən forum “Çoxqütblü dünyaya doğru” mövzusuna və münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya, qlobal idarəetmənin perspektivləri məsələlərinə həsr olunacaq.

Gürcüstan prezidentinin səfər çərçivəsində forumda çıxışı, habelə ölkənin rəsmi şəxsləri ilə görüşləri gözlənilir.

## TÜRKİYƏ BAKININ VƏ TBİLİSİNİN XARİCİ SİYASƏTİNƏ TƏRƏFDARDIR



“Türkiyə, Azərbaycan və Gürcüstanın iştirak etdiyi böyük layihələr yalnız bu ölkələrə xeyir gətirmir, həm də Avropanın enerji təhlükəsizliyi və tələbatının təminatına öz töhfəsini verir”. Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycan və Gürcüstan XİN-nin başçıları ilə Tbilisidəki danışıqlarından sonra bəyan edib.

Türk nazir qeyd edib ki, “Cənub qaz dəhlizi” və Trans-anadolu qaz kəməri kimi layihələr bütün region üçün mühüm əhəmiyyət daşıyır.

Çavuşoğlunun sözlərinə görə, Bakı və Ankaranın razılaşmasına əsasən TANAP layihəsinin gerçəkləşdirilməsi müddəti daha yaxın vaxta çəkilib.

Türkiyə XİN-nin başçısı bildirib ki, Pekinlə Londonu birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi cari ilin sonunadək başa çatacaq.

Mövlud Çavuşoğlu onu da qeyd edib ki, Türkiyə Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünü tanıyır, eləcə də Bakının və Tbilisinin regiondakı xarici siyasətini dəstəkləyir.

Azərbaycan-Ermənistan münaqişəsinin tənzimlənməsi məsələsinə toxunan türk diplomat qeyd edib ki, ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ probleminin nizamlanması üçün lazım olan addımları atmır.

“Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü prinsipləri çərçivəsində həll olunmalıdır. Ermənistan işğal olunmuş torpaqları azad etməlidir. Biz birtərəfli qaydada müstəqilliklərini elan etmiş Osetiya və Abxaziyanı tanımırıq və ciddi şəkildə Gürcüstanın ərazi bütövlüyünə tərəfdarıq”, – Çavuşoğlu qeyd edib.

## GÜRCÜSTAN TELEVİZORLARIN İSTEHSALINA BAŞLAYIR

Gürcüstan-Azərbaycan “AG Telekom” şirkəti televizorların istehsalına başlayır. Məhsul aprel ayında meydana çıxmalıdır. Şirkətin direktoru Mixail Qlontinin bildirdiyinə görə, gürcü televizorunun qiyməti 180-280 dollar arasında dəyişəcək.

Qlontinin sözlərinə görə, televizorlar böyük ticarət şəbəkələrində satılacaq.

“Gürcü televizorları idxal olunan brendlərə nisbətən ucuz olacaq. 32 düymlük (81 sm) televizor 180 dollara, 40 düymlük (101 sm) isə 280 dollara satılacaq. Düşünülmüş keyfiyyəti nəzərə aldıqda qiymətlər kifayət qədər aşağıdır”, – Qlonti bəyan edib.

Onun sözlərinə görə, gələcəkdə məhsulu Avropa bazarına çıxarmaq nəzərdə tutulur.

Gürcüstan-Azərbaycan “AG Telekom” şirkəti 2013-cü ildə Rustavidə fəaliyyətə başlayıb. Zavod hal-hazırda rəqəmsal verlişlərə keçmək üçün lazım olan set top box, eləcə də LED lampalar, myvideo üçün TV Box və başqa texnika istehsal edir.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# FEVRALIN İKİNCİ ÜZÜ VƏ YA YAŞANAN FACİƏLƏR

**Gözünüz aydın kiçik çilləni də yola verdik, getdi işinin dalınca. İndi də boz ayı yaşayaq, daha doğrusu boz ayda yazılanları. Təki salamatlıq olsun, Dədəmiz Qorqud demiş, lopa-lopa qarlar yağa, yaza qalmaz. Kirmişdən sizə bir şey deyim ki, mən artıq yazın ayaq səslərini eşidirəm, bir az da dözsək özünü də görəcəyik. Yaz boyunubükük bənövşələrini, təzə-tər çəmən-çayırını özündən öncə görüşümüzə göndərməyibmi? Bir yaxşı diqqət yetirin, artıq yazın burunu qanayıb. Novruza hər ötən gün bir addım da yaxınlaşırıq, dörd çərşənbədən birincisini artıq arxada qoymuşuq. Rəhmətlik Aşıq Alı babamız demiş, tələsirik görən yaza nə qaldı. Daha demirik ki, gedən ömürdən-gündən gedir. Arada məni fikir aparır ki, bayram gələcək, bunun süfrəsi var, qonaq-qarası var, gələni ağırlamaq, gedəni uğurlamaq qayğıları var. Birdən goru nurla dolmuş Vaqifin dediyindən olar: bayram oldu heç bilmirəm neynəyim? Burdan beləsini yazıb qanınızı qaraltmaq istəmirəm. Üstəgəl, sizin hər birinizin işarədən qanan ariflər olduğunuzu da bilməmiş deyiləm.**

Deyirəm bu qədər giriş, bu qədər lirik ricət yetər, işimiz-gücümüz var, gerçəkliklərə qayıtmaq məqamıdır.

Sizə bir etirafda bulunum ki, mənim bu fevral deyilən aya münasibətim həm yaxşıdır, həm pisdir. Bilirəm deyəcəksiniz ki, yenə bu məllimin söylədiyi nədir. Əvvəl-əvvəl fevralın yaxşı bir ay olmasından bir-iki kəlmə qulluğunuza ərz edim və inanıram ki, əksəriniz mənim fikrimlə razılaşıb, mənim tərəfimi tutacaqsınız. Mən fefralın yaxşılığını nədə görürəm bir-bir qulluğunuza ərz edim, qulaq asın. Fevral miladi təqvimdə ən ömrü gödək aydır, hərçənd ki, dörd ildən bir boyu bir gün uzansa da. Başını kəsirsən, canı çıxır, az qala bir anın içində martın ağuşuna düşürsən, için-dışın ümid çiçəklərinə bürünür, kefin ala buludda oynayır. Yanvarın cansıxıcı uzunluğundan sonra qısa bir fevral ayını yaşamaq adama ləzzət edir. Bir də fevralın 21-i Beynəlxalq ana dili günüdür. Hərçənd ki, çox adamın bundan xəbəri yoxdur və mənim böyük inamıma görə, bu yazını oxuyandan sonra bilməyənlərin də köksünün fəxarətdən qabaracağı şəksizdir. Deyək ki, bunlar fevralın gözəl məziyyətləridir.

İndi canım fevralın o biri üzünə – bizə yaşatdığı faciələrə diqqət yetirək.

Fevralın 23-ü sovet dönəmində Qırmızı Ordunun və Hərbi Dəniz Donanmasının yaranması günü kimi qeyd olunurdu. Bu ordunun qarşısındakı "qırmızı"nı bizim dırnaqarası dilçilərimiz "qızıl" eləyib, beynimizə pərçimləmişdilər. Rus öz ordusuna qırmızını yaraşdırmışdı, bizimkilər də bu sözü bəyənməyib, qızıla döndərmişdilər. Bu ordu mövcud olduğu illər ərzində nə işləklərdən çıxmadı, bir Allah bilir. Bəlkə də özü ağırlıqda qanlar axıtdı, evlər yıxıb, ocaqlar qaraltdı. Elə mövcudluğunun sonunda, ölüm ayağında olarkən, Tbilisidə, Bakıda axıtdığı qanlardan danışmaq kifayətdir ki, qırmızı ordunun nə yuvanın quşu olduğunu bilməyənlərə anladaq. Elə bu ordunun köməyi ilə düz 72 il əvvəl, yenə də fevralın 23-də çeçen və inquş xalqları öz doğma yurd-yuvalarından didərgin salınaraq, Orta Asiyanın susuz səhralarına sürgün olundular. Düzdür, indi bunu Stalinin ayağına yazıb, sovet hökumətini təmizə çıxarmaq istəyən adamlar da tapıla bilər. Amma əslində bu Stalinin şəxsiyyətinin naqisliyi ilə deyil, hakimiyyətin xarakterindəki naqisliklə müəyyən olunası bir gerçəklikdir. Elə Stalin də sovetin tərbiyə edib yetişdirdiyi tiran deyildimi? Alma budağından gen ha düşməyəcəkdi?

Məni bu günlə bağlı ağrıdan isə başqa məsələdir. Hələ də bu günə bayram kimi baxan, kişilər günü kimi təsəvvür edənlərimiz var. 23 fevral günü hələ də sevgilisinə, qardaşına, nişanlısına və daha nə bilim kimə hədiyyə-filan alanlarımız, göndərənlərimiz yox deyillər. Kürəyimizdə od qalayan hərbi cinayətkar ordunun yaranması gününü ətalətlə yenə də bayrama çevirmək şəhidlərimizin ruhuna hörmətsizlikdən başqa bir şey deyil. Bunun bircə adı var: manqurtluq.

**95 il əvvəl bir 25 fevral günü Gürcüstanın müstəqilliyinə son qoyan da, 24 il qabaq 26 fevral günü Xocalıda azərbaycanlılara qarşı soyqrım aktını icra edənlərin başında duran da həmin qırmızı ordu deyildimi? Bu gün Qafqazdakı – Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya kimi qaynar nöqtələrin yaradılmasının birbaşa iştirakçısı və icraçısı elə həmin qırmızı ordudur. Düzdür adı dəyişib, amma mahiyyəti dəyişməyib. Rusiya ordusuna çevrilsə də, sadəcə aktyorlar cildlərini, maska və qrimlərini dəyişiblər. 2008-ci ilin avqust müharibəsinin səbəbkarı başqa planetdən gəlməmişdi ki? Ad eyni, ünvan eyni. Həmin Qırmızı ordunun varisləri qana yerikləyib, Suriyanı qan gölündə boğmaqdan, Ukraynada qan axıtmaqdan doymur ki, doymur. Dəliyəm, güclüyəm deyib əzələ nümayiş etdirir, hamıya barmaq silkələməkdə davam edir. Amma buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz deyənlər də, məncə, səhv etməyiblər. Mən oyanan xalqların sevinci günlərini indidən görürəm.**

# QARDABANİDƏ XOCALI SOYQIRIMINA HƏSR OLUNMUŞ MƏRASİM KEÇİRİLİB

Fevralın 22-də Qardabani Dostluq Mərkəzində Xocalı soyqırımının 24-cü ildönümünə həsr olumuş anım mərasimi keçirilib. Mərasimdə Qardabaninin rəsmi dövlət orqanlarının və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş mərasimi Dostluq Mərkəzinin direktoru Şəmistan Vəliyev açaraq, tədbirə qatılan qonaqları salamlamış və toplantıya qatılanlara mərasimin məramı barədə qısa məlumat vermişdir. Bundan sonra Xocalı faciəsinin qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra isə Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndirilmişdir.

Mərasimin aparıcısı Dostluq Mərkəzinin məsul işçisi Qəzənfər Qulamov öz növbəsində iştirakçıları tədbirin gündəliyi ilə tanış etmişdir.

Anım mərasimində çıxış edən Nəzərli ictimai məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Jalə Abdullayeva, Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşı Dursun Həsənov, Qardabani rayon icra başçısının müavini Dünyamalı Hacıyev, Qardabani rayon sakrebulosunun müavini Rəfi Orucov və Kosalı kənd sakini, el ağsaqqalı şair Zahid Ələmpaşalı öz çıxışlarında 1992-ci ilin 26 fevralında baş verən hadisələri Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırım aktı kimi dəyərləndirərək, Xocalıda şəhid olan insanların xatirəsinin əbədiyaşar olduğunu vurğulamışlar.

Mərasimdə Nəzərli ictimai məktəbinin şagirdləri Həqiqət Yolçuyeva, Fatma İbrahimova, Bilqeys Əhmədova və Elvina Mosuyevanın, Kosalı ictimai məktəbinin şagirdləri Gülmir Məmmədova, Günətay Allahverdiyeva, Amilə Əhmədova, Ceyhun Daşdəmirov və Şahnigar Mosuyevanın, eləcə də Qardabani şəhər 3 saylı ictimai məktəbinin şagirdləri Ayşən İsmayılova, Diyana Həsənova, Zalxa Musayeva və Arzu Şirməmmədovanın söylədikləri şeir parçaları Xocalı faciəsinin miqyasını bir daha gözlər önündə canlandırmışdır.

Sonda Qəzənfər Qulamov mərasim iştirakçılarına təşəkkür edrərək, tədbiri bağlı elan etmişdir.

# "VARLIQ" MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİ YAD EDİLDİ

Fevralin 25-də varlığını paytaxt Tbilisidən sonra Rustavi şəhərində davam etdirən "Varlıq" mədəniyyət mərkəzinin ofisində Xocalı faciəsinin 24-cü il dönümünə həsr olunmuş anım mərasimi keçirildi. Mərkəzin toplantı salonunda faciə qurbanlarını əks etdirən fotoşəkillər qoyulmuş, təzə-tər çiçəklər düzülmüşdür. Mərasimə dəvət olunmuş qonaqlara müxtəlif dillərdə yazılmış və faciənin miqyasını canlandıran kitab və bukletlər təqdim edilmişdir.



Mərasimi "Varlıq" mədəniyyət mərkəzinin rəhbəri Rafiq Hümmət giriş sözü ilə açaraq, toplaşanları salamlamışdır.

Sonra Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş və Rustavi şəhərinin axundu Məhəmməd Şamilov onların ruhuna Qurani-Kərimdən dualar oxumuşdur. Daha sonra Rustavi şəhərindəki 18 saylı məktəbin şagirdlərinin Xocalı soyqırımı münasibətilə hazırladıqları ədəbi kompozisiya ifa olunmuşdur. Həmin məktəbin müəllimləri Məlahət Allahverdiyeva və Gülayət Məmmədovanın rəhbərliyi ilə hazırlanmış və Məqsudə İsmayılova, Elina Əlizadə, Aysel Mustafayeva, Gülçiçək Cəlilova, Mərhaba İskəndərova və Fidan isayevanın ifasında səsləndirilən bu kompozisiya mərasim iştirakçılarına kövrək anlar yaşatmışdır.

Kvemo Kartli quberniyasının şöbə müdiri Soso Pirveli, Abxaziya müharibəsində şəhid olmuş Yanvar Hümbətovun həyat yoldaşı Fatma Hümbətova, Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul işçisi İlyas Məmmədov, Rustavi azərbaycanlı icmasının fəalı Bəhram İsayev, tərcüməçi-yazar Cambul Məmmədli, gənc aktyor Fazil Bayramov, gənc şair Azər Musaoğlu, "Varlıq" mədəniyyət mərkəzinin gənc fəalları Qoca Yusifov, Ramin Söhbətov və Anar Rafiqoğlu çıxış edərək, Xocalı faciəsinə müxtəlif baxış bucağından qiymət vermişlər. Çıxış edənlər bu hadisəni azərbaycanlıların timsalında bəşəriyyətə qarşı həyata keçirilmiş cinayət aktı kimi dəyərləndirilmişlər. Mərasimdə qəzetimizi A. Muxtaroğlu təmsil etmişdir.

# GƏNCLƏRİN İŞLƏ TƏMİN EDİLMƏSİ ÜÇÜN "İDEYALAR MÜSABİQƏSİ" ELAN EDİLDİ

Fevralın 19-da gənclərin işlə təmin edilməsi üçün ideyalar müsabiqəsi elan edilib. İdman və gənclər nazirliyi yanında "Uşaq və gənclərin inkişafı fondu" sözü gedən layihəni elan edib və fondun nümayəndələri Gürcüstanın regionlarında layihənin təqdimatına başlayıblar. Fevralın 23-də "Uşaq və gənclərin inkişafı fondunun " direktoru İrakli Jorjoliani və Kvemo Kartli qubernatorunun inzibati aparatının sədr müavini Levan Jvaniya Qardabanidə olub və bələdiyyənin inzibati binasında görüşə dəvət edilmiş gənclərə layihəni təqdim ediblər.

Müsabiqənin əsas məqsədi gənclər təşkilatlarına dəstək olmaq, müxtəlif mövzularda olan layihələri maliyələşdirmək və gənclərin işlə təmin edilməsinə şərait yaratmaqdır. Müsabiqə üçün 1 milyon larilik büdcə ayrılıb. Öz ideyalarını əvvəlcədən işlənmiş meyarlara əsasən təqdim edən gənclər təşkilatları müsabiqədə iştirak edə bilərlər. Daxil olan layihələr gənclər və idman nazirliyində müzakirə ediləcək, qaliblər müəyyənləşdiriləcək.

Müsabiqədə işlə təmin edilməyə şərait yaratmaq, qeyri-formal təhsil, sağlam yaşam qaydaları və kütləvi idman kimi istiqamətlər var. Müsabiqədə üstünlüyün əsasən regionlardan və yüksək dağlıq bölgələrdən daxil olacaq layihələrə veriləcəyi bildirilir.

# MƏCBURİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ BAŞLAYIB

Fevralın 24-də Qardabani bələdiyyəsində çağırış yaşına çatmış gənclərin həqiqi hərbi xidmətə çağırılmasının birinci mərhələsi başlayıb. 17-24 yaşlı çağırışçılarTbilisidə tibbi müayinədən keçiriləcəklər. Bir il ərzində isə hərbi xidmətdə olacaqlar. Birinci mərhələyə həsr edilmiş tədbirdə Qardabani qamqebelisi Qoça Camarauli və müavini Dünyamalı Hacıyev iştirak ediblər. Hərbi qeydiyyat və çağırış xidmətinin rəhbəri Natela Qulbani çağırışın xüsusiyyətləri haqqında danışaraq, ərazi vahidlərinin nümayəndələrinə təsirli işlərinə görə təşəkkürünü bildirib. Qardabani qamqebelisi Qoça Camarauli çağırış yaşına çatmışlara uğurlar arzulayıb və hərbi xidmətin vətən qarşısında sevgi nümayişi olduğunu vurğulayıb.

# XOCALI SOYQIRIMININ YARATDIĞI DÜŞÜNCƏLƏR BURULĞANINDA

***Bəli, bir 26 fevralı da yola saldıq, dünyanın müxtəlif nöqtələrində yığışdıq və 1992-ci ildə azğınlaşmış rus və erməni vəhşiləri tərəfindən görünməmiş amansızlıqla həyata keçirilmiş, dünya tarixində analoqu az olan Xocalı qırğınını bir daha üzülərək andıq, lənətlər yağdırdıq... "Sən köləsən! Sən qorxaqsan! Sən ermənisən!" Bu sözlər dünya şöhrətli böyük rus şairi A.S. Puşkinə aiddir; İnanaqmı ki, dahi şair erməniləri xarakterizə edərkən 180 dərəcə yanılmışdır? Bu dığalar bəs nəyə arxalanıb da BMT kimi nəhəng təşkilatın Qarabağ torpaqlarının qeydi-şərtsiz azad edilməsi haqqında çıxardığı nə az, nə çox düz dörd qətnaməni heçə sayırlar?!***

Axı, heç də uzaq olmayan tarixdə, bütün dünyanın gözü qarşısında həmin BMT-nin qərarını yerinə yetirməyən Əfqanıstanın, İraqın, Yuqoslaviyanın, Liviyanın aqibətinin necə olması göz önündə deyilmi? Karl Marks ermənilər haqqında belə deyirdi: "Sağ qalmaqları üçün ermənilər öz qadınlarını başqa xalqlara satan ilk millətdir." Sübhənallah, dünyanin yarısından çoxunu bir əsrə yaxın zaman ərzində sosializm ideyası ətrafında birləşdirib, barmağına sarımış bu insandamı yanılıb, bu "cəngavər" xalqa böhtan atıb? Bəlkə bu ikiüzlü, bütün naqisliklərlə bolluca mükafatlandırılmış adi, oğru bir xalq anidən "şir ürəyi" yeyib, (məhşur cizgi filmdə Təməl Rəis ispanaq yeyib yenilməzliyə ulaşdığı kimi) və "cəsarət atını" səyirdib meydan sulayır? Düşünürəm ki, başda ABŞ dövləti olmaqla dövrümüzün aparıcı və qlobal dünya siyasətini bəlirləyən dövlətlərinin maskalarının düşməsini hər bir ağlına güvənən insanımız artıq apaydın görməli və bir millət kimi öz başının çarəsini özü tapmalı olduğunu anlamalıdır; bu dövlətlərin bizi bir xalq kimi sadəlöhv, əfəl sanıb, "insan haqları", "demokratiya", "bərabərlik" və




s. və.i.a. kimi "aldadıcı əmziklərlə" başımızın altına yastıq qoymalarının fərqində deyiliksə, onda bizlərin başına gələnlər haqq, üstəlik də azdır!

Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə güya həlli üçün yaradılmış, əslində isə münaqişəni dondurub, müddətini uzatmağa hesablanmış bir qondarma qurum var – ATƏT-in Minsk qrupu. Onun Rusiya, ABŞ və Fransa kimi üç həmsədri vardır. Tutaq ki, məsələnin həllində ABŞ-lı həmsədr Ceyms dayı neytral mövqe sərgiləmək istəyə bilər. Halbuki kim bilmir ki, dünyanın bu "baş şeytanı" çox zaman "pambıqla baş kəsir", bu və ya digər dövlətin hesabına özünün çoxkombinasiyalı planlarını tədricən həyata keçirir? Bəs, Rusiya necə? Axı, Rusiya deyilmi birbaşa dığaların ağası, Qarabağ və Xocalı dəhşətlərinin memarı? Qondarma erməni soyqırımını tanıyan və ölkəsində bu"soyqırımı" inkar edənlərin (?) bir il müddətinə həbs edilib, 45 min avro cərimə olunmasını qanuniləşdirən Fransanın Türkiyə-Azərbaycan "sevgisi" də göz önünə gəlmirmi? Nə qədər özümüz də özümüzü aldadıb, acı həqiqətlərə göz yuma biləcək?.. Köşə yazarımız Zamin Hacı bəzən milli televiziyalarımızı "milli telekanalizasiyalar" kimi anır. Əslinə qalsa, o, heç də qınanılası deyildir: Qarabağ kimi dərdi olan bir məmləkətin milli televiziyalarının (Gürcüstan televiziyaları da onun kimi) verilişlərinin əksəriyyəti şoularla, əyləncələrlə, mətbəx işlərilə və s. məzmunsuz verilişlərləmi millətin başını qatmalıdır?...

***İstəkli oxucu, "səbr elmlərin başıdır" deyilsə də, mən xalqıma Xocalı, Qarabağ məsələsində səbr diləyə bilmirəm, hər şeyin , o cümlədən səbrin də nəhayəti olmalıdır! Səbr edə-edə əsrin dörddə birini, qocaman bir 24 ili arxada qoyduq, nə qədər səbr edib, məğlubiyyətə uğramış bir millət statusu ilə yaşamaq olar?! Yas ildönümləri, qara bayramlar deyil, bundan sonra zəfər günlərinin sevinci ilə çırpınmaq istəyir ürək! Qısasımız qiyamətə qalmaz, inşaallah, ikinci Vətənimiz olan Azərbaycanımızı bütövləşmiş görərik!***

Cambul MƏMMƏDLİ

# XOCALI SOYQIRIMININ İLDÖNÜMÜNƏ SÖZARDI

***Keçdiyimiz günlərdə Rustavi şəhərindən – "Varlıq" Mədəniyyət Mərkəzinin ofisində Xocalı Soyqırımına həsr olunmuş anım günü keçirildi. Sadəcə Rustavidəmi? Xeyr! Soydaşlarımızın yaşadığı əksər bölgələrdə, bir çox ölkədə soyqırımla bağlı müxtəlif tədbirlər və anım mərasimləri ilə Xocalıda şəhid olanlar yad edildi. Əlbəttə, zorakılıq terror, soyqırım bir daha lənətləndi. Bəs bu tədbirlər, bu mərasimlər Xocalıda baş verən soyqırımı nə dərəcədə effektiv şəkildə gözlər önünə sərdi? Məncə verilməsi gərəkən ən önəmli sual budur.***

Xocalını bir soyqırım kimi daha geniş miqyasda bütün dünyaya tanıtmağa müvəffəq olmuşuqmu? Nə zamana kimi 10-15 nəfər bir yerə yığışıb eyni şeylərdən danışacağıq? Düzdür, son illərdə çalışır-çabalayırıq ki, səsimizi dünyaya daha çox duyuraq, lakin təəssüf doğuracaq hal ondan ibarətdir ki, adicə yüz minlərlə azərbaycanlının yaşadığı doğma Gürcüstanda belə indiyədək bir çox gürcü dostlarımızın Xocalı Soyqırımından kifayət qədər xəbəri və məlumatı yoxdur. Belə olmasının qəbahəti bizdəmi? Məncə yox. Çünki bir soyqırımı, soyqırım kimi geniş miqyasda tanıtmağın yolu sadəcə tədbirlər, mərasimlər keçirməkdən ibarət deyil. Bunlarla yanaşı, hökmən mənim "mədəni inqilab" olaraq adlandırdığım sənət yolu ilə Xocalıda baş verənləri gözlər önünə sərə bilərik. Mədəni inqilab nədir? Gəlin, indi buna aid bəzi örnəklərə nəzər salaq. Artıq 21-ci əsrdəyik və ölkələrin, millətlərin taleyini sadəcə savaşlar, silahlar həll eləmir. Bu mənada yəhudiləri misal gətirə bilərik. Faşizm dövründə Adolf Hitler Almaniyası tərəfindən tam 6 milyon yəhudi sırf etnik kimliklərinə görə qətlə yetirildi. Biz bunu hardan bilirik? Şəxsən mən bunu öyrənmək üçün Yəhudi soyqırımı ilə bağlı olan hər hansı bir tədbirə, anım mərasiminə qatılmamışam. Bir nəfər belə olsun yəhudi tanışım yoxdur. Amma Yəhudi soyqırımı haqqında xeyli məlumatım var. Hansı ildə baş verdi, necə baş verdi, niyə baş verdi. Üstəlik, bunları evdə oturaraq öyrənmişəm. Bəs bütün bunlar necə oldu? Qeyd etdiyim mədəni inqilab faktorunun bunda rolu çox böyükdür. Fikrimi təsdiq üçün sizə sadəcə üç film barədə qısa məlumat təqdim edəcəm. Vaxtınız və marağınız olsa mütləq həmin filmləri izləyin.

1) Şindlerin siyahısı (orijinal adı: Schindler's List) – 1993-cü ildə rejissor Stiven Spilberq tərəfindən çəkilən ABŞ filmi. Stiven Spilberq 1993-cü ildə "Şindlerin siyahısı" filminə görə arzusunda olduğu mükafatı – "Oskar"ı qazanıb. II Dünya müharibəsi illərində yəhudilərin taleyindən bəhs edən bu film Amerika Kino Akademiyasının yeddi nominasiyası üzrə uğur qazanmışdır.

2) Həyat gözəldir (orijinal adı: La vita e bella) – İtalyan rejissor Roberto Benigninin 1997-ci ildə çəkdiyi dram filmidir.

İkinci dünya müharibəsi dövründə arvadı və oğlu ilə birlikdə yəhudi düşərgələrinə aparılan yəhudi atanın və arxasınca gedən bir italyan ananın övladını qorumaq üçün etdiyi saysız-hesabsız fədakarlıqlardan bəhs edir. Film 1998-ci il Kann Film Festivalında Ən Böyük Mükafatı qazanıb. 1999-cu ildə Oskarda 7 nominasiyaya namizəd olan film "Ən yaxşı xarici film", "Ən yaxşı aktyor" və "Ən yaxşı musiqi" nominasiyalarında bu mükafatı qazanmışdır.

Pianoçu (orijinal ad: The Pianist) — 2002-ci ildə Roman Polanskini tərəfindən çəkilmiş film.

Film milliyyətcə yəhudi olan məşhur polyak pianoçusu Vladislav Şpilmanın həyatından bəhs edir. Bir çox mükafat qazanmış bu filmin baş rol aktyoru Edrien Broudi filmdəki roluna görə 2002-ci ildə "Ən yaxşı aktyor" nominasiyasında Oskara namizəd göstərilib və qalib olub.

***Qeyd etmək istədiyim mədəni inqilab məhz bundan ibarətdir. Bu filmləri dünyanın dörd bir yanından milyonlarca insan izləyib. Elə açığı desəm, mənim özüm də yəhudi soyqırımı haqqında ilkin məlumatları bu filmlərdən öyrənmişəm. Uzun sözümün qısası odur ki, bu cür dünya səviyyəsində filmlər çəksək, nəinki qonşu xalqlar, dövlətlər, hətta Mozambik, Madaqaskar kimi ölkələr belə Xocalı Soyqırımı haqqında məlumat sahibi olar. Və törədilən bu insanlıq cinayətini bütün dünya qınayar. Bir məqamı da qeyd edim ki, bu filmləri özümüz çəkməməliyik. Bir az pula qıyıb dünya şöhrətli rejissorlara, aktyorlara müraciət etməliyik ki, ortaya tam keyfiyyətli və reklam mahiyyəti yüksək olan bir film çıxsın. Niyə də olmasın? Düşünün. Xocalı Soyqırımı haqqında çəkilən bir filmin baş rolunda Bred Pitt və ya Leonardo Di Kaprio oynayır. Sırf onlara görə film dünyanın əksər ölkələrində yayımlanar və beləcə dünya Xocalı Soyqırımı haqqında mədəni yollardan daha geniş məlumat toplayar.***

***Unutmayaq ki, hər bir yaxşı film tarixi bir sənətdir, sənəddir...***

Anar RAFİQOĞLU

## ÇEÇENLƏRİN VƏ İNQUŞLARIN DEPORTASİYA EDİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirliyi aparatının təşkilatçılığı ilə çeçen və inquş xalqlarının deportasiyasının 72 illiyi ilə əlaqədar Milli parlament kitabxanasında tədbir keçirilib.

Tədbirdə müxtəlif elmi dairələrin nümayəndələri, ictimai xadimlər, Gürcüstan ali təhsil müəssisələrinin tələbələri və Pankisidən gələn qonaqlar iştirak etmişlər.

Çıxış edənlər Şimali Qafqaz xalqlarının kütləvi sürgün zamanı keçdikəri məşəqqətlərdən söhbət açmışlar. Həmçinin tədbirdə deportasiya prosesini əks etdirən sənədli kadrlar, faciə iştirakçılarının portretləri və bu mövzuda çəkilmiş film nümayiş etdirilmişdir.

Məlimdur ki, sovet hakimiyyətinin qərarı ilə 1944-cü ilin 23 fevralında bir sutka ərzində çeçenlər və inquşlar öz doğma torpaqlarından tamamilə Orta Asiya ölkələrinə sürgün olunmuşlar.

2004-cü ildə Avropa parlamenti çeçenlərin və inquşların sürgün olunmasını rəsmi şəkildə soyqırım aktı kimi tanımışdır.

## "KƏND LAYİHƏSİ" ÇƏRÇİVƏSİNDƏ BU İL QARDABANİYƏ 1 653 000 LARİ AYRILACAQ

Qardabani bələdiyyəsinin rəsmi internet səhifəsində verilən məlumata görə , 2016-cı ildə mərkəzi büdcədən kənd layihələrini həyata keçirmək üçün Qardabani bələdiyyəsinə 1 653 000 lari ayrılıb. Fevralın 23-də Qardabanidə Regional inkişaf və infrastruktur nazirliyinin nümayəndələri və bələdiyyə əməkdaşları bu mövzunu müzakirə ediblər. Görüşdə Regional inkişaf və infrastruktur nazirliyinin məqsədli proqramların idarəedilməsi bölməsinin sədri Giorgi Çinçadze və həmin bölmənin Kvemo Kartli regionu üzrə koordinasiyaçı Nino Qiquaşvili layihə üzrə nəzərdə tutulan məbləğin düzgün bölünməsinin vacibliyindən danışıb.

2016-cı ilin vacib dəyişikliklərindən biri isə odur ki, bundan sonra layihələr ancaq hərrac elan edilməsi yolu ilə gerçəkləşdiriləcək. Hərrac müddətlərini isə bələdiyyə müəyyənləşdirəcək. Regional inkişaf və infrastruktur nazirliyinin məqsədli proqramların idarəedilməsi bölməsinin sədri Çinçadze kəndlə bağlı layihələrin həyata keçirilməsi zamanı yerli işçi qüvvəsindən yararlanmağın faydalı olduğunu bildirib. Görüşün sonunda Giorgi Çinçadze Qardabanini infrastruktur layihələrinin həyata keçirilməsi baxımından ən qabaqcıl rayonlardan biri kimi xaraktrizə edib.

# RUSİYA SİYASƏTİNİN PƏRDƏARXASI MƏQAMLARI

***Cari ilin fevralın 10-da Rusiya ilə Ermənistan arasında 200 milyon dollar dəyərində silah satışı sövdələşməsinin qüvvəyə minməsi Azərbaycanın kəskin etirazına səbəb olmuş və bu barədə rəsmi Bakı Rusiyaya etiraz notası göndərmişdir. Regionun işğalçı dövlətinə müasir silahların ötürülməsi bölgədəki münasibətlərin gərginləşməsinə səbəb olmuş və bu, Dağlıq Qarabağ ətrafında yaranmış münaqişənin eskalasiyasına təkan verən addım kimi qiymətləndirilməlidir. Əgər Rusiyanın yuxarıda qeyd olunan münaqişənin həll edilməsi üzrə həmsədr ölkə olduğunu nəzərə alsaq, onda Kremlin bu addımına heç cür bəraət qazandırmaq olmaz. Belə bir situasiyada Rusiyanın məkrli və imperiya ambisiyalı siyasət yürtməsinə heç bir şübhə yeri qalmır.***

Rusiyanın Ermənistanı müasir silahlarla təchiz etməsi yeni fakt deyil. Əvvəllər də Moskva Cənubi Qafqazdakı "körpəciyinə" 1 milyard dollar dəyərində silah ötürməklə başına "tumar" çəkmişdir. Məsələnin problematikasına bir neçə aspektdən yanaşsaq, onda Rusiyanın bu addımının arxasında hansı niyyətin gizləndiyini görmüş olarıq. İlk olaraq, Ermənistan iqtisadiyyatının tamamilə iflası fonunda Azərbaycan hərbi potensialının qat-qat güclü durumda olması və Bakının bu sahəyə xüsusi diqqət yetirməsi faktorunu vurğulamaq olar. Əgər 2016-cı il üçün Ermənistanın hərbi məsrəfi 430 milyon dollar planlaşdırılıbsa, Azərbaycan bu sahəyə 2 milyard 116 milyon dollar xərcləyəcəyini nəzərdə tutur. Cənubi Qafqazdakı ən etibarlı müttəfiqini ola biləcək təhlükədən qorumaq üçün Moskvanın canfəşanlığını anlamaq heç də çətin deyil. Bölgədəki bütün münaqişə ocaqlarında status-kvonun saxlanması Rusiyanın maraqlarına xidmət edir. Rusiyanın Ermənistana hücum xarakterli silah satışı Azərbaycan və Ermənistan arasında hərbi sahədə güc və qüvvələrin balanslaşdırılmasına , eləcə də Rusiyanın regionda strateji və geosiyasi mövqeylərinin də möhkəmləndirilməsinə hesablanıb.

Moskvanın İrəvanla öz münasibətlərinə əlavə diqqət yetirməsini son zamanlar Azərbaycan və Türkiyə arasında diplomatik rabitənin intensivləşməsi və Dağlıq Qarabağ münaqişəsi ətrafında gərginliyin artması ilə də əlaqələndirmək olar. Əgər Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş ərazilərində hərbi yolla və bilavasitə Türkiyənin dəstəyi ilə tarixi ədaləti bərpa etmək niyyətində olarsa, Kremlin buna seyrçi qalmayacağı bəllidir. Ona görə də Rusiyanın Ermənistanın hərbi arsenalına verəcəyi "Qasırğa" reaktiv atəş qurğularını Kremlin Türkiyə üzərində hərbi-siyasi təzyiqini artırmaq məqsədi kimi də qiymətləndirmək olar. Suriyada İŞİD-ə qarşı antiterror əməliyyatı adı altında Əsəd rejminə dəstək verən Rusiya Ermənistanın hava sərhədlərini mühafizə etmək missiyasını da öz üzərinə götürmək, ehtimal oluna biləcək təhlükə zamanı Türkiyə və Suriyanın şimalında yerləşən rəqib mövqeylərini asanlıqla vurmaq niyyətindədir.

***Rusiyanın Ermənistana silah satışını nəzərdə tutan müqavilənin maliyyə tərəfi də maraq doğurur. Belə ki, hərbi sursatın Ermənistan tərəfindən alınması üçün maliyyə qaynağını da Moskva öz üzərinə götürür. Yəni, Rusiya 200 milyon dolları Ermənistana kredit şərtləri ilə verir. Amma, bunun nə dərəcədə inandırıcı olması isə şübhəlidir. Kreml üçün əsas məsələ Qafqazlarda mövqeylərini daha da möhkəmlətməkdir. Rəsmi Bakı sözü gedən məsələ ilə bağlı Rusiyaya etiraz notası göndərərək, bu silahların Azərbaycana qarşı istifadə edilməmsinə dair Moskvadan zəmanət tələb edir. Lakin, Moskvadan Azərbaycan tərəfini qane edəcək cavab gəlsə belə, Rusiyanın etibarna güvənmək özünü aldatmaq deməkdir.***

Sahib MUSTAFA

## GEORGİ VAŞADZE: ARTIQ PUTİNİN SONU YAXINLAŞIR



Putinin sonu yaxınlaşır, mədəni dünya artıq Putinə qarşı ciddi qərarlar qəbul etməkdədir, paralel olaraq bir neçə prosesə başlanılıb. Gürcüstan ədliyyə nazirinin keçmiş müavini, deputat Georgi Vaşadze belə bəyan edib.

O, "Putinin sonunun" yaxınlaşdığına dəlalət edən bir çox proseslərin adını çəkib:

1. Litvinenkonun işi üzrə istintaq açıq şəkildə Putinin izi haqqında danışır;

2. ABŞ istintaq orqanlarının yüksək vəzifəli şəxsləri və Qərb KİV açıq şəkildə Putinin korrupsiya gəlirlərindən və gizli əmlakından söhbət açırlar;

3. Avropalı deputatlar Haaqa məhkəməsini Krımın anneksiyası və anneksiyadan sonra baş verən hadisələrlə əlaqədar istintaq araşdırmalarına başlamağa çağırırlar;

4. "Boinq"in vurulması ilə əlaqədar müstəqil təhqiqatların nəşr olunmuş nəticələrinə görə, Rusiya xüsusi xidmət orqanlarının məqsədəyönlü fəaliyyəti təsdiqlənir;

5. Haaqa məhkəməsi 2008-ci il müharibəsinin gedişində baş vermiş hərbi cinayətlərin araşdırılmasına başlayır və əgər Rusiya siyasi elitasının məsələyə verdiyi reaksiyaya görə fikir yürütsək, onlar kifayət qədər qorxublar.

Vaşadze yuxarıda göstərilənlərdən əlavə Rusiya totalitar rejiminə qarşı bəyanatların, avropalıların sanksiyaların sərtləşdirilməsi barədə bəyanatlarının, Türkiyə prezidenti Ərdoğanın Putinlə danışıqların mənasız olması haqqında bəyanatının və digərlərinin də adını çəkir.

"Əsas məsələ ondan ibarətdir ki, beynəlxalq hüquqa məhəl qoymayan Putin Rusiyası totalitar, trrorist bir ölkəyə çevrilib, razılaşmaları imzalayıb, onları yerinə yetirmir, terror təşkilatları ilə əmkdaşlıq edərək, onları silahlandırır, totalitar rejimləri gücləndirir.

Məhz buna görə yekun qərar çıxarılıb! Putinin və totalitar Rusiyanın tezliklə sonu gələcək! Neftdən asılı olan Rusiya iqtisadiyyatı tam kollaps içərisindədir! Ona görə də artıq Putindən sonrakı dönəm barədə düşünmək lazımdır. Belə ki, əvvəlcədən hazırlanmış plan böhran vəziyyətlərində bizə düzgün qərar qəbul etməkdə kömək edəcək", – Vaşadze bildirib.

Hazırladı: Elnur SƏFƏROV

## TÜRKIYƏ HHQ ƏN YENI RADIOELEKTRON MÜDAFIƏ SISTEMINƏ SAHIB OLDU

Türkiyənin ASELSAN dövlət korporasiyasının hazırladığı yeni KORAL radioelektron mübarizə sistemi Türkiyə HHQ-nin ixtiyarına verilib.

Səyyar radioelektron KORAL stansiyası Türkiyə Hərbi Hava Qüvvələrinin ən yeni silahıdır.

Bu radioelektron müdafiə sistemi düşmənin müasir RLS-də əngəl yaratmaq və onu susdurmaq üçün nəzərdə tutulur.

KORAL sistemi raketləri, təyyarələri və radarları müəyyən edib zərərsizləşdirir.

Türk mütəxəssislərin sözlərinə görə, belə radioelektron mübarizə vasitəsi Rusiyanın S-400 radar sistemlərini "kor" edərək, susdura bilir.



## AVROPADA BÖYÜK TERROR AKTI OLA BİLƏR

Avropa polisinin direktoru Rob Ueynrayt xəbərdarlıq edib ki, "İŞİD" terror qruplaşmasının silahlıları Avropada böyük terror aktı törədə bilərlər.

O, qeyd edib ki, Avropa on il ərzində ən nəhəng terror təhlükəsilə qarşılaşıb. Terror aktlarını yalnız terror qrupları deyil, təkbaşına fəaliyyət göstərən terrorçular da həyata keçirə bilərlər.

"Gözlənilir ki, İŞİD və ya digər dini terror qruplaşmaları Avropanın harasındasa əhali arasında çoxsaylı qurbanların olması məqsədilə hücum həyata keçirsinlər", – Ueynrayt bildirib.

Bu gün "İŞİD" dünyanın təhlükəsizliyini təhdid edən əsas qüvvələrdən biridir. Üç il ərzində terrorçular İraqın və Suriyanın xeyli ərazisini ələ keçirməyə müvəffəq olublar. Bundan əlavə, onlar öz təsirlərini Şimali Afrika ölkələrində, əsasən də Liviyada yaymağa cəhd edirlər. Müxtəlif qaynaqların bir-birinə zidd məlumatlarına görə, İŞİD-in nəzarət etdiyi ərazilər 90 min kvadrat kilometrə çatır. Ekstremist təşkilatın üzvlərinin sayı haqqında məlumat da dəqiq olmayıb, müxtəlif mənbələrdə 50 mindən 200 minə nəfərədək göstərilir.

## SƏUDİYYƏ ƏRƏBİSTANINDA "ŞİMALIN GÖY GURULTUSU" ADLI HƏRBİ TƏLİMLƏR BAŞLADI

Səudiyyə Ərəbistanının Raduş Şimal (Şimalın Göy Gurultusu) adıyla təşkil etdiyi və 20 ölkənin qatıldığı hərbi təlimlər başlayıb.

Bu barədə Səudiyyə Ərəbistanının rəsmi xəbər agentliyi SPA məlumat yayıb.

Məlumata görə, iştirak nisbətinin yüksək olması və hərbi təlim sahəsinin genişliyi baxımından dünyanın ən böyük hərbi təlimlərindən sayılan Raduş Şimal ölkənin şimal bölgəsində başlayıb.

Region tarixində indiyə qədər həyata keçirilən ən böyük hərbi təlim kimi xarakterizə edilən və 3 həftə davam edəcək manaverlərə Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Bəhreyn, Seneqal, Sudan, Küveyt, Maldiv adaları, Mərakeş, Pakistan, Çad, Tunis, Komor, Cibuti, Oman Sultanlığı, Qatar, Malayziya, Misir, Mavritaniya və Mauritius qatılıb.

Siyasi şərhçilər bu hərbi təlimi Suriya məsələsində Rusiya və İranla fikir ayrılığında olan Səudiyyə Ərəbistanının güc nümayişi hesab edirlər.

## ABŞ YENİ SUPERQIRICILAR İSTEHSALINA HAZIRLAŞIR

ABŞ-da hazırlanmaqda olan super qırıcı-bombardmançı təyyarənin ilk təsvirləri nümayiş etdirilib. ABŞ Hərbi Hava Qüvvələrinin komandanı Debora Ceyms bildirib ki, yeni "hava qırğısı"nın analoqu olmayacaq.

Superqırıcı LRS-B (Long Range Strike Bomber) layihəsi əsasında hazırlanır. B-21 kateqoriyalı yeni model hazırda istifadədə olan B-52 və B-1B modellərini əvəz edəcək.

Təyyarənin hazırlanması "Northrop Grumman" korporosiyasına həvalə edilib. Bu şirkət tenderdə "Boeing" və "Lockheed Martin" kimi məşhur istehsalçıları geridə qoyub və qalibi ABŞ müdafiə naziri Eşton Karter şəxsən elan edib.

Layihənin start dəyəri 21,4 milyard dollardır. İlkin mərhələdə 21 super qırıcı-bombardmançının buraxılması planlaşdırılır. Sınaqlardan sonra ABŞ Hərbi Hava Qüvvələri daha 80-100 belə təyyarə sifariş etmək niyyətindədir.

Yeni superqırıcının hər birinin qiyməti yarım milyardı ötərək, 564 milyon dollar təşkil edir.

# ÖZÜNƏ KÖNÜLLƏRDƏ YUVA QURAN MÜƏLLİM



***Nəzərli-Kosalıda uşaqdan böyüyə kimdən soruşsan Osman müəllimin gözəl pedaqoq və layiqli insan olduğu cavabını alarsan. Osman müəllimin dərs dediyi şagirdlərdən biri kimi, eləcə də sonralar onunla çiyin-çiyinə eyni məktəbdə işləyən bir müəllim kimi onun haqqında nə deyə bilərəm?***

Əvvəlcə oradan başlayım ki, Osman Osmanov 1936-cı ildə Qarayazının Nəzərli kəndində zəhmətkeş bir ailədə dünyaya göz açmışdır. Uşaqlıq illəri qanlı-qadalı müharibə illərinə təsadüf etdiyindən erkən yaşlarından valideynlərinə kömək etmək məcburiyyətində qalmışdır. Uşaqlığı belə bir ağır dövrlə üst-üstə düşən və köməyini ailəsindən əsirgəməyən kiçikyaşlı Osmanın məktəbə getməsi də xeyli gecikmişdir. Belə ki, o, məktəbə ancaq 10 yaşı olanda gedə bilmişdir. Kosalı orta məktəbini bitirən Osman Əhməd oğlunun ali təhsil alması da bir qədər gecikir. O, orta məktəb təhsilini başa vurduqdan sonra bir il valideynlərinə kömək etməli olmuş, yalnız bundan sonra ali təhsil almaq üçün Bakya üz tuta bilmişdir.

Osman müəllim 1958-ci ildə qəbul imtahanlarını uğurla verərək, Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsinin tələbəsi olur. Tələbəlik illərində müəllimlərinin sevimlisi olan Osman Osmanov universiteti uğurla başa vurub, valideynlərinin təkidi ilə öz doğma elinə-obasına dönməli olur. 1963-cü ildən məzun olduğu doğma Kosal orta məktəbində coğrafiya müəllimi kimi pedaqoji fəaliyyətə başlayır. O, 2008-ci ilədək, yəni düz 45 il Kosalı və Nəzərli məktəblərində coğrafiyanın tədrisi ilə məşğul olaraq, onlarla, yüzlərlə ali təhsilli ziyalının yetişməsində, onların kamil bir insan kimi formalaşmasında müstəsna xidmətlər göstərmişdir. Osman müəllim sözün həqiqi mənasında nadir insan, əvəzolunmaz pedaqoq idi. Bunu onunla eyni kollektivdə çalışanlar, dünyanın dörd bir yanına pərvazlandırdığı keçmiş şagirdəri fikirləşmədən söyləyə bilərlər. Onun bu müsbət keyfiyyətləri diqqətdən kənarda qalmamış və dəfələrlə dövlət tərəfindən maarif əlaçısı kimi təltif edilərək, fərqləndirilmişdir. Lakin, fikrimcə, onun ən böyük mükafatı neçə-neçə alimin, müxtəlif ixtisasa yiyələnmiş ali təhsilli mütəxəssisin və əsil insan kimi yetişdirib tərbiyə etdiyi müxtəlif sahələrdə çalışan şagirdlərinin sevgisi və məhəbbətidir.

Pedaqoqikaya aid kitablarda yazılan müəllimlik şərəfli, məsul və mürəkkəb peşədir fikrini Osman müəllim öz işi, öz əməli ilə gerçəkliyə çevirə bilmişdir. O, bu deyilənlərə işgüzarlığı, zəhmətsevərliyi ilə, ciddi nizam-intizamı ilə nail olmuşdur. Osman müəllimlə təmasda olan hər kəs bunu təsdiqləyə bilər.

Osman müəllim sinfə daxil olan kimi öz səliqəli, nizamlı davranışı ilə, aydın seçilən, səlis, ən zəif şagirdin anlaya biləcəyi qüsursüz danışığı ilə öz biliyini şagirdərinə çatdıraraq, onların kiçik ürəklərində özünə yuva qura bilirdi. Elə bu keyfiyyətləri ilə də şagirdlərinin qəlbini ovsunlayan Osman müəllim tədris etdiyi fənni onlara sevdirirdi. Kiçik ürəklərdə qurduğu bu yuvalarda Osman müəllim özünə qarşı məhəbbət, özünə qarşı hörmət yarada bilirdi. Məhz bu məhəbbət, bu hörmət bu gün də neçə-neçə ürəkdə yaşamaqdadır və inanıram ki, Osman Əhməd oğlu Osmanov haqqında bir müəllim kimi xoş xatirələr həmişə yada düşəcək, xoş təəssüratlar uzun zaman yaşayacaqdır.

***Fevralın 7-də haqq dünyasına yola saldığımız Osman müəllim müəllimlik peşəsinin və əsil insanlığın zirvəsində duranlar sırasındadır. Belə insanlar haqqında deyilir: onlar ölmürlər, sadəcə dünyalarını dəyişirlər.***

Məhəmməd RÜSTƏMOĞLU
Nəzərli ictimai məktəbinin müəllimi

# DOSTA-DÜŞMƏNƏ MÖVZU OLAN ƏMƏLİMİZ

**Yenəmi bu mövzu, yenəmi eyni söhbət? Bəli… Yenə eyni mövzu, yenə… Hələ belə davam etsə, bu mövzudan yenə yazacağıq. Yüz dəfə. Lap min dəfə. Bir yerə varana qədər. Nəticə əldə edincəyə qədər. Ümid edirəmmi nəticə olacağına? – Nə yalan deyim belə bir ümidim-filanım yoxdur.**

Məncə, sizin də ürəyinizə damdı. Nə haqqında danışmaq istidiyimi hiss etdiniz. Lənət sənə kor şeytan, mən yenə millətimin millətimi təhqir etməsindən, millətimin millətimə heyvan münasibəti göstərməsindən danışmaq məcburiyyətindəyəm.

Bir neçə gün əvvəl bunu evdə də dedim. Nə yaxşı varıq biz, ay Allah? Nə yaxşı ki, bizi Avropaya, nə bilim yekə-yekə təşkilatlara mövzu kimi göndəribsən. Biz olmasaydıq insanlar nədən danışar, nəyin üzərində müzakirə aparardılar. Biz əla mövzuyuq. Bitib tükənən deyilik, bir mövzu kimi, nə gözəl ki, varıq. Adımız Alıosmana çıxıb. Elə düşünməyin ki, yaxşı yöndən. Əsla. İndi kimsə mənə tək-tük yaxşı nümunələri gətirməsin. Onları mən də bilirəm. Hər kəs bilir. Lakin, bu o demək deyil ki, biz bir yaxşının xətrinə min yamana qurban olmalıyıq.

Mənim mövzuya bu birtəhər girişlərim sizə həmişə bezdirici görünür, bilirəm, lakin sakit başlamağa imkan verən məsələ də deyil. Hamı inkişafdan danışır. Ağzını açan hər kəs inkişaf etməmizdən danışır. Lakin mən, qərar verdim ki, biz inkişaf etməli deyilik. Biz nə üçün inkişaf etməliyik axı, nə üçün insan sırasına qarışmalıyıq. Biz bir-birimizə vandal kimi davranırıq. Hələ də uf demədən, vicdanımızda bir zərrə sızıltı-inilti olmadan elimizin, kəndimizin, millətiminizin qızını qaçırdırıq. Öz kəm ağlımızla burda pis heç nə görmürük. Nənəmin dilindən eşitdiyim bir qarğış var idi, kimlərəsə yönlərdirirdi , "səni gerilərdə qal" deyirdi. Son zamanlarda ard-arda baş verənlərdən sonra mən düşünməyə başladım ki, bəlkə də uzun illər əvvəl kimsə, bir ağzı gözəl bizə elə məhz bu sözlərlə bəddua edib. Sizi gerilərdə qalın deyib. Odur-budur ki, belimizi düzəldib ayaqlaşa bilmirik. İki gün əvvəl gürcü televiziyalarının birində bir sujet izlədim. 17 yaşlı Lekso ( İsgəndər adındandır ) adında bir oğlan hamımıza yaxşı tanış olan Dezerdili bazarında yük daşıyır. Yəni hamballıq edir. Deyir ki , dörd ildir bu işlə məşğulam, ailəmi saxlayıram. Deyəcəksiniz burda nə var ki, dünyada minlərlə, milyonlarla gənc bu şəkildə çalışır. Bəli haqlısınız. Onun kimi çalışan çoxdur. Lakin, mənim üçün onu minlərdən fərqləndirən şey sonrakı cümləsi idi. Mən balaca bacımın oxuması üçün çalışıram deyir. Balaca dediyi bacısı özündən bir yaş kiçikdir. Jurnalist deyir sən oxumaq istəmirsənmi, Lekso cavab verir ki, bacım oxusun mən birinci sinifdən yenidən oxuyaram. Niyəmi danışıram bunu? Ona görə danışıram ki, Leksonun sujetini izlədikdən sonra bizim 17 yaşlıları qız qaçırdan, mafiyaçılıq edən görürəm. Doğrudur yaxşı və pis hər yerdə hər xalqda var və var olacaqdır. Amma, bir İsgəndər görmək istədim, dünyaya açıq gözlə baxa bilən, qadınları mal hesab etməyən. On gün boyunca ard-arda biz yenə mövzu olduq. Yenə haqqımızda nəsə deyərək, gah gizlin, gah aşkar güldülər bizə. Uzaqda yox, Poniçalada baş verənləri hamımız eşitdik. Tükümüz tərpəndimi? Yox. Ailə maksimum şəkildə səsini duyurmağa çalışdı, ancaq gürcü cəmiyyətində bir fikir dolaşırdı: iki gün sonra toy edəcəklər. Özümüzü elə təqdim edirik ki, insanlar başqa şey düşünə bilmirlər. Düşünürlər ki, biz heç düzələn deyilik. Yaxşı bilirik ki, nə cəza verilsə də, bu son hal olmayacaq, qısa zaman sonra başqa yerdə, başqa adda bir insanın başına bir neçə gün əvvəl 17 yaşlı Samirənin başına gələnlər gələcək. Kiminsə anası üz-gözünü cırmaq məcburiyyətində olacaq.

**Mötəbər oxucum, mənim əlimdən bu mövzuda susmamaq gəlir. Bəs sən? Sənin millətinin qızları öz kəndinin, elinin, obasının oğlanlarını gördükdə ürəklənib, möhkəm dayanmaq əvəzinə, ilan görmüş kimi nə vaxta qədər qaçacaqlar? …**

Afayət AFİQ

## GÜRCÜSTAN MƏTBUAT AZADLIĞI İNDEKSİNDƏ MÖVQEYİNİ 15 PİLLƏ YAXŞILAŞDIRIB

"Sərhədsiz reportyorlar" təşkilatının 2015-ci il üzrə yaydığı hesabata əsasən, Gürcüstan mətbuat azadlığı indeksində öz mövqeyini 15 pillə yaxşılaşdırıb.

Hesabata görə, Gürcüstan mətbuat azadlığı indeksi üzrə 69-cu yeri tutur, bundan əvvəl isə o, 84-cü yerlə kifayətlənirdi.

Mətbuat azadlığı nöqteyi-nəzərindən postsovet ölkələri arasında Gürcüstan yalnız Baltikyanı ölkələrindən geri qalır.

## ABŞ-IN GÜRCÜSTANA HƏRBİ YARDIMI 10 MİLYON DOLLAR AZALACAQ

ABŞ Dövlət Departamenti 2017-ci ildə "Gürcüstanın demokratikləşməsi, iqtisadi inkişafı, Avroatlantik məkana inteqrasiyası və Rusiyanın təcavüzünə müqavimət göstərməsi məqsədilə" 63 milyon dollar vəsait ayıracaq. Bu məbləğin bir hissəsi həm də "enerji təhlükəsizliyinə və rusiyameyli əhalinin iqtisadi imkanlarının artırılmasına" yönələcək. Hərbi yardımın həcmi isə əhəmiyyətli dərəcədə azalacaq, yəni indiki 30 milyondan 20 milyona düşəcək.

Ukrayna böhranından sonra ABŞ hakimiyyəti Avropada Amerika hərbi potensialını gücləndirmək məqsədilə genişmiqyaslı proqrama start verib. Ağ Evin təkidi ilə 2017-ci ildə bu proqram çərçivəsində ABŞ büdcəsindən bu ilkindən təxminən beş dəfə çox, yəni 3,4 milyard dollar ayrılacaq. Məbləğin əhəmiyyətli hissəsi, daha doğrusu 1,9 milyardı Şərqi Avropada Amerika hərbi qüvvələrinin yerləşdirilməsinə sərf ediləcək. Gürcüstan bu layihədə iştiraka iddia etsə də, proqramdan kənarda qalıb.

Analoji layihə NATO-da da müzakirə edilir. Alyans ölkələrinin müdafiə nazirləri Brüsseldə keçirilmiş zirvə görüşündə bəyan ediblər ki, Şərqi Avropada, eləcə də Baltik və Qara dəniz regionunda hərbi fəallığı gücləndirmək niyyətindədirlər. NATO böyük ehtimalla Litva, Latviya, Estoniya, Polşa, Rumıniya və Bolqarıstanda hərbiçilərdən ibarət 1000 nəfərlik briqadalar yerləşdirəcək. Gürcüstanın müdafiə naziri Tina Xidaşeli sammitdə bildirib ki, onun ölkəsinin bu proqramdan kənarda qalması məqsədəuyğun deyil.

Moskva isə NATO-nun bu planına, ənənəyə uyğun, neqativ yanaşır. Rusiyanın Alyansdakı diplomatik nümayəndəsi Aleksandr Qruşko jurnalistlərə bildirib ki, "NATO bununla Rusiyanı soyuq müharibəyə cəlb etmək istəyir".

## RUSİYA GÜRCÜSTANDA HAKİMİYYƏT DƏYİŞİKLİYİ PLANINI GİZLƏTMİR



"TV Pirveli" teleşirkətinin qonağı olan müdafiə naziri Tina Xidaşeli bəyan edib ki, Rusiyanın ATƏT-dəki səfiri birbaşa onu və həyat yoldaşını Rusiya üçün ciddi problem adlandırıb.

"Keçən həftə mən ATƏT-də idim və Rusiya səfiri birbaşa, 56 səfirin yanında mənə çox sadə şeylər dedi. Onun sözlərinə görə, mənim NATO-ya inteqrasiya barədə tez-tez danışmağım onu çox narahat edir. O, dedi ki, mən və həyat yoldaşım bu gün Rusiya üçün çox ciddi problem yaradırıq. O, bu barədə iclasda açıq şəkildə dedi, çünki bizim liberal-demokratik dəyərlərə sədaqətimiz parlaq şəkildə ifadə olunub və bu, Rusiya üçün qəbuledilməzdir", – Tina Xidaşeli qeyd edib.

Müdafiə nazirinin bəyanatına görə, Rusiyanın ATƏT-dəki səfiri deyib ki, Gürcüstanda hakimiyyət onların istədiyi istiqamətin xeyirinə dəyişəcək.

"O, dedi ki, oktyabrdan sonra sən hakimiyyətdə olmayacaqsan. Çünki o dəqiq bilir ki, Rusiyanın doğru və ağıllı hərəkəti sayəsində Gürcüstanda hakimiyyət onların istədiyi istiqamətin xeyirinə dəyişəcək", – Xidaşeli vurğulayıb.

Bu məlumat Gürcüstan müdafiə nazirliyi tərəfindən yayılıb.

# GƏLİN QƏLB QIRMAYAQ

***Ürək, yəni könül Allahın yaratdıqlarının ən üstünü, ən şərəflisidir. İnsan, insandan başqa hər şeyi özündə cəm etdiyi üçün məxluqların ən qiymətlisi olduğu kimi, ürək də, insanda olan hər şeyi özündə yığdığına görə çox qiymətlidir. Özündə çox şey olan, Allahu təalaya hər şeydən daha yaxındır.***

Bu səbəblə, küfrdən sonra ən böyük günah ürək / qəlb qırmaqdır. Bir dinsizin belə ürəyini qırmamalıyıq. Saleh bir müsəlmanın ən böyük qorxusu bir başqasının ürəyini qırmaq, onu incitmək olmalıdır.

Nizaməddin Övliya həzrətləri:

"Qəlb qırmaq, Allahu təalanın lütfünü incitməkdir. Nə ilə qarşılaşırsa qarşılaşsın, saleh bir şəxs əsla kimsəyə pis söz söyləməməli və lənət etməməlidir. İnsanların etdikləri qəbahətləri açıqlamamalıdır" – buyurmuşdur.



Bir ürəyi qırmaq, illərlə edilən ibadət və zikrin savabını heç edər. islamiyyət elə bir dindir ki, kafirin də ürəyini qırmağı qadağan etmişdir. Allahu təalaya və Onun Peyğəmbərinə inanan, Allah deyən heç bir Müsəlmanın ürəyi qırılmamalıdır. Çünki bir möminin ürəyini qırmaq, çox böyük günahdır, haramdır.

Din böyükləri buyurur ki:

"Hər günah, imanı təhlükəyə soxmağa səbəb ola bilər, amma bu üç günahın təsiri daha qüvvətlidir:

1. İman nemətinə şükr etməmək.
2. İmanın getməsindən qorxmamaq.
3. Möminləri incitmək, ürəklərini qırmaq.

Hədisi şərifdə: "Ürək qırmaq, Kəbəni yetmiş dəfə yıxmaqdan daha pisdir", – buyurulmuşdur. Yaxşı olsun, pis olsun heç bir insanın ürəyini incitməməliyik. Allahu təalanı ən çox incidən küfrdən, inkardan sonra, ürək qırmaq kimi böyük bir günah yoxdur."

İmamı Rəbbani həzrətləri buyurur ki: "Ürək, Allahu təalanın qonşusudur. Allahu təalaya ürəyin yaxın olduğu qədər heç bir şey yaxın deyil. Mömin olsun, üsyankar olsun, heç bir insanın ürəyini qırılmamalıdır. Çünki, üsyankar olan qonşunu da qorumaq lazımdır. Çəkinin, çəkinin, ürək qırmaqdan çox çəkinin! Allahu təalanı ən çox incidən küfrdən sonra, ürək qırmaq kimi böyük günah yoxdur. Çünki, Allahu təalaya çatan şeylərin ən yaxın olanı ürəkdir. İnsanların hamısı, Allahu təalanın qullarıdır.

Hər hansı bir kimsənin qulu döyülüb, incidilsə, onun sahibi əlbəttə narahat olar. Deməк ki, qəlb qıran biri hər şeyin tək sahibi olan əfəndinin şanını, böyüklüyünü düşünməlidir..."

Qeybət, başqası haqqında pis fikirləşmək və ürək qırmaq, qul haqqıdır. Əziyyətlərə dözmək, hirslənməmək, gülərüzlü və şirin sözlü olmaq, gözəl əxlaqdandır. Bunun üçün heç kimlə münaqişə edilməməlidir. Münaqişə, dostun dostluğunu aradan qaldırar, düşmənin də düşmənliyini artırar. Haradan baxılırsa baxılsın, həmişə zərərdir. Möminlər dua edər, fasiqlər, münafiqlər isə, dedi-qodu və qeybət edərlər. Ağılı olan islam dinini qəbul edib müsəlman olar, Allaha xidmət edər. Nəfsinə, şeytana uyğun gələn isə, inkara, küfrə düşər.

İslamiyyətə uyan Cənnətə, nəfsinə uyğun isə Cəhənnəmə gedər. Əhməd Yəsəvi həzrətlərinin buyurduğu kimi: "Kafir belə olsa, heç kimin ürəyini qırma! Ürək qırmaq, Allahu təalanı incitmək deməkdir."

Həzrəti peyğəmbər hər zaman insanlarla xoş davranmış, təbəssüm etmişdir. Və "Təbəssüm sədəqədir" buyurmuşdur.

Ayəti kərimədə də insanlara qarşı yumşaq davranmaq və qəlb qırmamaq haqqında belə buyurulmuşdur:

"İnsanlara yumşaq davranmağın da Allahın mərhəmətinin əsəridir. Əgər daş ürəkli, kobud biri olsaydın, insanlar sənin ətrafından dağılardılar. Elə isə onların qüsurlarını bağışla, onlar üçün bağışlama dilə və işləri onlarla müşavirə et! Bir dəfə də əzm etdinmi, tək Allaha təvəkkül et! Allah şübhəsiz ki Özünə güvənənləri sevər." (Al-i İmran, 3/159).

Sevmək iki nəfəri əhatə edir. Qırmaq qırılmaqsa tək bir nəfəri. Özünü düşünüb heç layiq olmadığına qərar verər qarşındakına kinlənərsən. Kin qəlb qırmanın yatdığı mağaradır. Dərin yuxudan oyanar hirs və qırar qarşısındakının qəlbini.

Gəlin bizlər kin və nifrət bəsləyərək qəlb qıranlardan yox, təbəssüm edərək, xoş söz söyləyərək qəlb oxşayanlardan olaq.

Ürək qırmaqdan Allaha sığınıb və ürək qırmaqdan çox, ürəkləri kəşf edib, ürəklər qazanmaq ümdi ilə.

Hacı BƏKİROĞLU

# AVROPA İTTİFAQI GÜRCÜ ALİMLƏRİNİ MALİYYƏLƏŞDİRƏCƏK

Gürcüstan yaxın vaxtlarda Avropa İttifaqının innovasiyalar və tədqiqatlar üzrə "Horizont – 2020" layihəsinin üzvü olacaq. Bu, gürcü alimlərinə yüksək büdcəli fondun maliyyəsindən istifadə etmək imkanı verəcək.

"Avropa tədiqatlar fondu"nun vitse-prezidenti professor Mart Saar Tbilisidəki görüşdə gürcü alimlərinə layihələr üçün maliyyəni necə almaq barədə tövsiyyələrini verib.

"Tezliklə Gürcüstan "Horizont – 2020" layihəsinin üzv dövləti olacaq. Bu, gürcü alimlərinə Avropa tədqiqatlar fondundan istifadə etmək imkanı verəcək. Bu, çox maraqlı imkandır. Belə ki, fond ilkin, orta və yüksək kateqoriyalı qrantlar verir. Sonuncu kifayət qədər böyükdür və beş milyon avro təşkil edir", – Saar alimlərlə görüşdə bildirib.

"Horizont – 2020"nin büdcəsi 80 milyard avro təşkil edir. Bu məbləğ 2014-cü ildən elmi və ya tədqiqat ixtiralarına və innovasiyalara bölüşdürülür.

Yeddi il üçün hesablanmış proqramın əsas məqsədi 2014-2020-ci illərdə Avropanın tədqiqatlar məkanında elmi təşəbbüsləri dəstəkləmək və həvəsləndirməkdir.

# GÜRCÜSTAN MƏKTƏBLİLƏRİ SAHİBKARLIĞI ÖYRƏNƏCƏKLƏR

Gürcüstanın təhsil və elm nazirliyi ticarət-sənaye palatası ilə birlikdə sahibkarlıq dərsliyi nəşr edib. Bu dərslik 10-11-ci sinif şagirdləri üçün nəzərdə tutulub.

Bu pilot layihə Gürcüstanın 220 məktəbini əhatə edir. Hal-hazırda "Sahibkarlığın əsasları" fənni məcburi deyil, lakin təhsil nazirliyi gələcəkdə vəziyyətin dəyişəcəyini istisna etmir.

"Əlbəttə ki, bu elementlər məcburi iş şəbəkəsinə daxil edilsə yaxşı olardı, lakin tələsməyə dəymər" – "Sahibkarlığın əsasları" fənnini tədris edən pedaqoqlarla görüşdə təhsil naziri Tamar Sanikidze bəyan edib. Onun sözlərinə görə, Gürcüstanda kiçik və orta biznesin inkişafı naminə gənclərin başlanğıcdan bu istiqamətdə hazırlanması ölkəmiz üçün vacibdir.

Görüşdə pedaqoqlar təhsil nazirinə məktəblərdə yeni fənnin tətbiqi prosesi barədə məlumat veriblər. Nazirlikdə belə izah ediblər ki, "Sahibkarlığın əsasları" fənni məktəblilərdə planlaşdırma və təşkil etmə vərdişlərini inkişaf etdirir, eləcə də ideyanın konkret fəaliyyətə çevrilməsini öyrədir.

# 21 FEVRAL BEYNƏLXALQ ANA DİLİ GÜNÜDÜR




21 Fevral bütün dünyada Beynəlxalq Ana dili günü kimi qeyd olunur. YUNESKO 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə fevralın 21-ni Beynəlxalq Ana dili günü elan edib.

Hadisənin tarixi isə bir qədər də əvvələ gedir. 21-22 fevral 1952-ci ildə Pakistanda benqal dilinin qadağan edilməsinə etiraz əlaməti olaraq keçirilən aksiyada polis və silahlı qüvvələrin müdaxiləsi nəticəsində 4 nəfər şəhid olub. Fevralın 21-i məhz həmin şəhidlərin xatirəsinə ehtiram əlaməti kimi Ana dili günü kimi qeyd edilir. YUNESKO tərəfindən üzv ölkələrə tövsiyyə olunub ki, həmin gün məktəblərdə, universitetlərdə Ana dilinin əhəmiyyəti ilə bağlı tədbirlər, konfranslar, seminarlar keçirilsin.

Bu gün planetimizdə yaşayan minlərlə millət və etnik qrup sayı iki yüzə yaxın olan dövlətlərin bayrağı altında cəmləşib və sayı 200-ə yaxın olan bu dövlətlərin rəsmi dövlət dillərinin sayı isə 70-i keçmir. Bu mənada, dilin dövlət dili statusu qazanması həqiqətən qürur doğuran tarixi hadisədir.

# 2015-Cİ İLDƏ GÜRCÜSTANDA 600-Ə YAXIN MƏKTƏBLİ QIZ ƏRƏ GEDİB

Gürcüstanda 2015-ci ildə 13 yaşdan 16 yaşadək olan 600-ə yaxın azyaşlı məktəbi ataraq ərə gedib. Bu barədə "Safari" QHT-nin sədri Bayya Pataraya məlumat verib.

O, dəqiqləşdirib ki, statistika məlumatlarını Gürcüstanın xalq müdafiəçisinin ofisində təqdim ediblər. Həmin məlumatları isə təhsil və elm nazirliyi xalq müdafiəçisinin rəsmi müraciəti əsasında dəqiqləşdirib.

Pataraya deyib: "Valideynlərin sözlərinə görə, bu o məktəblilərdir ki, məktəbi ərə getmək üçün atırlar. Lakin bir çox hallar da var ki, valideynlər bunun səbəbini göstərmirlər. Bu isə onu göstərir ki, ərə getməyə görə məktəbi atanların sayı daha çoxdur".

O, həmçinin bildirib ki, 179 halda Gürcüstan cinayət məcəlləsinin 140-cı maddəsinə əsasən cinayət işi açılıb.

"Biz bütün hallarda cinayət işinin nəyə görə açılmadığını bilmirik. Lakin səbəb bu ola bilər ki, 16 yaşadək qızlarla azyaşlıların cinsi əlaqəyə girməsi qadağandır. Əgər onların hər ikisi yetkinlik yaşına çatmamışsa, cinayətdən söhbət gedə bilməz", – Pataraya qeyd edib.

Məktəbli qızlar məktəbi atdıqları halda Təhsil nazirliyi DİN-ni məlumatlandırmağa borcludur. Bundan sonra məsələyə münasibət bildirmək və istintaqa başlamaq mümkündür. Pataraya bildirib ki, dövlət bu problemin həlli üçün daha fəal hərəkət etməlidir. Xüsusilə erkən nikahın ciddi problem olmasını, qızların hüquqlarının pozulduğunu qəbul etməlidir. Bununla belə cəmiyyətin düşüncəsini də yüksəltmək gərəkdir.

"Biz valideynlərlə, pedaqoqlarla, məktəblərlə işləməliyik, hamı başa düşməlidir ki, erkən nikah qızlar üçün zərərlidir, pisdir və biz bu praktikanı sürətləndirməliyik. Bəziləri düşünürlər ki, bunda xüsusi heç nə yoxdur, lakin ərə getmək çox ciddi addımdır. Onlar çox vaxt ailə qurmağa, cinsi əlaqəyə, hamiləliyə və uşaq dünyaya gətirməyə hazır olmurlar, tez-tez sağlamlıqlarında ağırlaşmalar müşahidə olunur", – Pataraya əlavə edib.

Bu qadınların tam təhsili olmadığından, onların iş tapmasında və özünü reallaşdırmasında problemlər yaranır, onlar böyük ehtimalla ailə zorakılığının qurbanlarına çevirilə bilərlər. Söhbətinin yekununda Pataraya bunları söyləyib.

# GÜRCÜSTANDA AİLƏ ZORAKILIĞI FAKTLARI ARTIB

2015-ci ildən Gürcüstanda ailədə zorakılığın tətbiqinə görə, cəzalar sərtləşdirilib.

Gürcüstan daxili işlər nazirliyinin yaydığı məlumatda bildirilib ki, Gürcüstanda cari ilin yanvarında bu sahədə 172 cinayət qeydə alınıb, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 62,26% artıq deməkdir.

DİN-nin məlumatına görə, 172 cinayətdən 65-nin üstü açılıb. Cinayətlərin üstünün açılması 37,79% təşkil edib.

Gürcüstan cinayət məcəlləsində "ailə zorakılığı" maddəsi 2012-ci ilin iyununda qüvvəyə minib. Ölkə parlamenti 2014-cü ildə bu tipli cinayətlərin sayının kəskin şəkildə artması səbəbindən ailə zorakılığına dair qanun qəbul edib. Artıq 2015-ci ildə bu qanun əsasında Gürcüstanın cinayət məcəlləsində dəyişiklik edilmiş, bu cür hərəkətlərə görə cəzalar sərtləşdirilib.

# SƏYYADIN NƏVƏSİ SAYAT NOVA

**Əsil adı Arutin olan Sayat Nova kimdir və niyə Azərbaycan dilində qoşqular yazmışdır? Sayat Novanın özü dəfələrlə yazmışdır ki, Hələb şəhərindən gəlmiş atasının adı Karapet, anasının adı Sara, arvadının adı isə Mərmərdir. Karapetin uzaq Suriyanın Hələb şəhərindən gəlib Ermənistana çatmasının və oradan da Tiflisə düşməsinin səbəbləri bizim üçün aydın deyil, Azərbaycan dilində yazdığı şeirlərindən birinin sonunda yazır:**

(əvvəli ötən sayımızda)

Biri deyər Sayat Nova haradan,
Birisi Hind deyər, biri Həmədan.
Vətənim Tiflisdir, səmti Gürcüstan,
Anam avlabarlı, atam hələbli.

Sayat Novanı görmüş Gürcüstanın sonuncu çarının alim oğlu şahzadə David onun haqqında yazmışdır ki, Sayat Nova o zamanlar Gürcüstanın çarlıq xanədanına mənsub olan Ermənistanın Loru qəzasının Sanain kəndindəndir. Lakin o, həmişə Tiflisdə yaşamış və çar sarayının baş sazəndəsi olmuşdur, çünki onun anası sanainli idi və yeniyetmə Arutin oxuyub-yazmağı Sanain kilsəsi nəzdində o vaxtlar məşhur olan dini məktəbdə öyrənə bilərdi. Bu da məlumdur ki, Tiflisdə kiçikyaşlı Arutini toxucu yanında sənət öyrənməyə qoyurlar. Lakin Arutinin musiqi istedadı və qoşqular qoşması onu o qədər məşhurlaşdırır ki, nəhayət, Gürcüstan çarı II İraklinin sarayının sazəndəsi olur. Sayat Nova, müasirlərinin bildirdiyinə görə, həm də gözəl səsi olan xanəndə idi. O, təkcə dövrünün məlum mahnılarını deyil, eləcə də əksərən özünün qoşduğu nəğmələri də ifa edirdi. Bu nəğmələrin cüzi bir hissəsi nəsildən-nəslə keçərək bizə çatmışdır. Sayat Nova misilsiz bir sazəndə idi. Dövrün bütün musiqi alətlərində gözəl çala bilirdi. Onun məhz Tiflisin saz-söz mühitində, Tiflis sazəndələr məktəbində yetişməsi məsələsi üzərində dayanmaq istəyirəm. Şair-akademik, qədim Tiflisə yaxşı bələd olan İosif Qrişaşvili Sayat Nova haqqında yazdığı monoqrafiyasında qeyd edir: "Aşıq mahnıları bir çox başqa şeylər kimi, bizə ilk dəfə İrandan daxil olmuşdur. İranlıların öz bəstəkarları var idi, öz mütribləri (müğənni – rəqqas qadınlar – M. M.) var idi, öz forması var idi, özlərinin musiqi nəzəriyyəsi kitabı var idi: "Musiqi elmi". Burada da müxtəlif nota, havalar nüsxəsi və bir çox diqqətəlayiq başqa şeylər».

XIX əsrin birinci yarısında Qafqaza sürgün edilmiş, Tiflisdə uzun müddət yaşamış dekabrist-şair Yakob Polonski o dövrün ən məşhur xanəndəsi Səttara şeir həsr etdiyi kimi, 5 yanvar 1851-ci il tarixli 1 saylı "Kafkaz" qəzetində "Sayat-Nova" adlı məqaləsində yazmışdır: "Keçmişdə olduğu kimi, indi də Gürcüstanda sazəndələrə çox böyük hörmət bəsləyirlər. Onların xalq arasında saysız-hesabsız pərəstişkarları vardır. Tiflisdə istər kübar və istərsə də ortabab ailədə heç bir toy şənliyi sazəndəsiz keçmir. Onları xüsusi maraqla dinləyirlər".

Qədim Tiflisə yaxşı bələd olan şair-akademik İosif Qrişaşvili burada yaşayıb yaradan sazəndələrdən yazarkən Mirzəcan, Hacı Yusif, Məşədi İsi, David bəy (tarzən), Abdülbaqi (Bülbülağa), Dilmanlı Həsən, Zülal, Həsənçə, Həşim (Keştazlı – M. M.) Ağacan, Şöhliyyə, Allahverdi, Səttar, Cəfər və başqalarının adını çəkir.

Sayat Novanın dövründə Tiflisin ən yaxşı xanəndələrindən və böyük dövlət xadimi və yazıçı Nəriman



Nərimanovun ulu babası olan Allahverdi barəsində salnaməçi yazır: Çar İraklinin dəfn mərasimində sevimli xanəndə Allahverdi təmtəraqla iştirak etmişdir. Sayat Novanın isə heç adı da çəkilmir. Belə ki, Allahverdi çar İraklinin tabutunu da öz əli ilə yonub düzəltmişdir. Şahzadə Dimitri özünün şeirlərindən birində Qoca babanın ölümünü tam təfsilatı ilə qələmə alır və Allahverdi barəsində söhbət açır.

Çarın ölümündən sonra Allahverdi yenə də saraya gedib-gəlməyini davam etdirmişdir. Allahverdinin ən çox II İraklinin oğlu şahzadə Aleksandrla yaxşı münasibəti olub. Aleksandr Allahverdisiz süfrə arxasında oturmazmış. Şulaverdə təşkil etdiyi ziyafətə Allahverdini də özü ilə aparmışdı.

Şahzadə İohane "Kalmasoba" əsərində məlumat verir: "Şahzadə Aleksandr məclis əhlinin hamısını ziyafətə dəvət etdi. Və əmr etdi ki xanəndə Allahverdi bura təşrif buyursun. O da gəldi, həvəslə çalıb-oxumağa başladı".

Xülasə, Xanəndə Allahverdinin çar II İrakli ilə, onun ailə üzvləri ilə dostluq əlaqələri barədə məlumat verən mənbələr çoxdur. Lakin Sayat Novanın çarla, eləcə də sarayla əlaqəsini göstərən mənbələrə o qədər də rast gəlinmir.

İosif Qrişaşvilinin yazdığına görə, Saya Novanın dövründə bir çox aşıq: Kiçik Nova, Tüccar, Dostu, Şəmşi Məlik, Turunc, Öysüz oğlan, Nurali, Narınc oğlan, Gürcüoğlu, Cahil oğlan, Çaxmaqçı Yaqub, Sefil oğlan, Nalbənd oğlu, Qərib oğlan, Yalqız, Çön oğlan, Ləzzət oğlan, Miskin Bürcü, Yaqub oğlu, Nərgiz, Kababçı oğlan, Şirin, Əlvan oğlan, Səyyad, Qəzzaz oğlan, Dəllək Murad və başqaları olub.

Sayat Novanın adının hardan əmələ gəlməsi barəsində elə erməni alimləri yazarkən, məhz azərbaycanca Səyyad sözündən düzəldiyini, yəni Səyyadın nəvəsi olduğunu da ehtimal edirlər. Çar İraklinin sarayından qovulduğunu, onun çar İrakliyə müraciətlə gürcücə yazdığı şeirlərin ikisindən başa düşmək olur: "Ədalətlə hökm ver, daha yaxşı olardı ki, məni Kürə tullayaydın, öz əlinlə öldürəydin, nəinki belə bir qəddar cəza verəydin – keşişin, yasa batmışın qara paltarını geydirəydin».

O, həyatdan və hər şeydən məhrum edilsə də, boş dayanmamış, 1766-cı ildə Süleyman peyğəmbərin təmsillərindən ibarət müntəxəbat tərtib etmişdir. Bundan iki il əvvəl Tiflisdə nəğməkarın arvadı vəfat edir, dörd uşağı qalır. Keşiş olmuş Sayat Novaya bir neçə il Tiflisdə ailəsinin – dörd uşağının yanında qalmağa zorla icazə verirlər. Sonralar Loruda Axpat məbədində rahiblik edir. Burada o, 20-25 il qalsa da, öz vəziyyəti ilə razılaşa bilmir. Müasirlərinin nəql etdiyinə görə, rahib Sayat Nova bəzən paltarını dəyişər və xəlvətcə Tiflisə gəlib xalq şənliklərində iştirak edərmiş. Belə bir hadisə məlumdur: İrandan məşhur bir aşıq Tiflisdə olarkən,Tiflis aşıqları və Sayat-Novanın şagirdləri ilə deyişir, onlara üstün gəlir. Buna dözməyən Sayat Nova libasını dəyişərək Tiflisə gəlmiş və məşhur aşıqla deyişməyə başlamışdır. Aşıq çətin vəziyyətdə qalmış və soruşmuşdur ki, onun tərəf-müqabili "Tiflisdə Sayat Nova adlı bir məğlubedilməz aşığı tanımışmı, bilmişmi, görmüşmü?". Libasını dəyişmiş qoca aşıq onun hər bir sualına cavab verərkən demişdir: "Tanımanam, bilmənəm, görmənəm, inanmanam". Bu kəlmələrin mahiyyətinə varanda bu cür oxunur: Tanı mənəm, bil mənəm, gör mənəm, inan mənəm.

Mirzə MƏMMƏDOĞLU

(ardı gələn sayımızda)

# BAHALIĞA GÖRƏ ƏHALİNİN NORMAL QİDALANMASI MƏHDUDDUR

Oxfam beynəlxalq təşkilatının Gürcüstandakı nümayəndəliyinin əməkdaşıLevan Dadiani bəyan edib ki, Gürcüstan əhalisinin böyük hissəsi ərzaq məhsullarının bahalığı və gəlirlərinin azlığı üzündən tam şəkildə qidalana bilmir.

"Qeyd etmək lazımdır ki, ölkə əhalisinin 21%-i yeməyi daim şəkildə, 39%-i isə vaxtaşırı olaraq borcla alır. Bu o kateqoriya adamlardır ki, gəlirləri ayda 1000 larini aşmır. Onlardan çoxu ətdən, balıqdan, meyvədən istifadə edə bilmir", – Dadiani deyib.

İnsan sağlamlığı üçün gərəkli olan on əsas ərzaq məhsulundan (ət, balıq, tərəvəz, meyvə, yarma və b. k.) Gürcüstan əhalisinin böyük hissəsi yalnız beşini özünə rəva görür.

"Elə qruplar da var ki, bunlardan yalnız üçündən-dördündən istifadə edə bilir. Bu qrupa bu ərzağın iki və ya üçündən istifadə edən pensiyaçılar da daxildir. Bu, əsasən, çörək-bulka məmulatı və karbohidratlardan ibarətdir", – Dadiani qeyd edib.

Gənclərlə bağlı vəziyyət daha təhlükəlidir. Onların böyük hissəsi gərək olduğu miqdarda yağlı və zülallı qidalar qəbul edə bilmirlər, bu onların böyüməsini və əqli inkişafını ləngidir. Tam şəkildə qidalanmamaq diabet, ürək-damar və digər xəstəliklərin inkişafına səbəb olur.

Gəliri min laridən yuxarı, təqribən 1,5 min lari olan ailələr gəlirlərinin 35%-ini yeməyə xərcləyirlər ki, bu da yüksək göstəricidir. İnkişaf etmiş ölkələrdə aylıq qida xərcləri 15%-i keçmir, – Levan Dadiani aydınlaşdırıb.

# NAXÇIVAN-BATUMİ AVTOBUS REYSİ FƏALİYYƏTƏ BAŞLAYIB

Naxçıvan-Batumi və əks istiqamətdə avtobus marşrutu fəaliyyətə başlayıb.

Avtobus Türkiyə Respublikası ərazisindən keçməklə Batumi şəhərinə hərəkət edir. Avtobus hər həftənin şənbə günü Naxçıvan şəhərindən 7:30-da yola düşür, 21:00-da Batumiyə çatır. Avtobusun Batumidən Naxçıvan istiqamətinə hərəkət qrafiki də eynidir. İlk avtobus isə fevralın 20-də Naxçıvandan Batumiyə yola düşüb.

Qeyd edək ki, biletlər muxtar respublika ərazisindəki avtovağzallarda satılır. Bir nəfər üçün biletin qiyməti 27 manatdır.

# GÜRCÜSTAN PASPORTU 67 ÖLKƏYƏ VİZASIZ GETMƏK İMKANI VERİR




Gürcüstan pasportuna sahib olanlar dünyanın 67 ölkəsinə vizasız gedə bilərlər. Elə bu göstəriciyə görə Gürcüstan "Viza məhdudiyyətləri 2016" qlobal pasport reytinqində 71-ci yeri tutub.

Reytinqi hər il dünyanın 219 ölkəsində vizaların verilməsi qaydaları əsasında Henley & Partners kompaniyası tərtib edir. Ölkələrin reytinqdəki mövqeyi bu pasport sahiblərinin neçə ölkəyə vizasız gedə bilməsinə əsasən müəyyənləşdirilir.

Gürcüstan reytinqdə Belarus, Qazaxıstan, Qambiya, Malavi və Svazilendlə 71-ci pilləni bölüşdürür. Reytinqə görə bu ölkələrin vətəndaşları dünyanın 67 dövlətinə vizasız gedə bilərlər. Reytinqin ilk iki pilləsini müvafiq olaraq 177 və 176 ölkəyə viza aça bilən Almaniya və İsveç tutur. Üçüncü pilləni Finlandiya, Fransa, İtaliya, İspaniya və İngiltərə bölüşdürür.

Keçmiş sovet ölkələri arasında ən yüksək reytinq Latviyaya məxsusdur. 13-cü yeri tutan Latviyanın vətəndaşları vizasız 163 ölkəyə gedə bilirlər. latviyadan bir pillə aşağıda Estoniya və Litva qərarlaşıb.

Reytinqdə 43-cü yeri tutan Rusiyanın pasportu ilə 105 ölkəyə vizasız getmək mümkündür.

Reytinqdə son üç pillədə İrak, Pakistan və Əfqanıstan qərarlaşıb.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

15 fevral 2016-cı il
№004 (18)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## RUSTAVİDƏ RƏSSAM ƏLİ ƏLİYEVİN FƏRDİ SƏRGİSİ KEÇİRİLİB



Fevralın 19-da Rustavi şəhərindəki Rustavi tarix muzeyində gənc rəssam Əli Əliyevin fərdi sərgisinin açılışı olub. Sərgidə rəssamın əksəriyyəti mücərrəd və sürreal üslubda işlənən 21 rəsm əsəri nümayiş etdirilib. Bu, Əli Əliyevin sayca altıncı fərdi sərgisidir.

Daha əvvəl Tbilisi Dövlət Universiteti, Qafqaz evi, Gürcüstan parlament kitabxanası kimi bir sıra nüfuzlu məkanlar gənc rəssamın fərdi sərgilərinə ev sahibliyi edib.

Sərginin açılış mərasiminə "Varlıq" mədəniyyət mərkəzinin rəhbəri Rafiq Hümmət və mərkəzin bir qrup fəalı da qatılıb.

Sərgidə Qardabani qabqebelisinin sədr müavini Dünyamalı Hacıyev və Qardabani bələdiyyəsinin sədr müavini Rəfi Orucov da iştirak ediblər. Onlar rəssama peşəkar fəaliyyətində Qardabani bələdiyyəsi adından dəstək olduqlarını bildiriblər. Sərginin açılış mərasimində həmçinin Kvemo Kartli qubernatorunun müavini, Rustavi şəhər meriyasının nümayəndələri də iştirak ediblər.

Əli Əliyevin rəsmlərindən ibarət sərgi fevralın 25-dək Rustavidən və bölgələrdən gələn sənətsevərlərə nümayiş etdiriləcək.

## BAKIDA "ROBİNZON VƏ 9 CÜMƏ" AZƏRBAYCAN-GÜRCÜ FİLMİNİN TƏQDİMATI OLUB

Bakıdakı "Nizami" kino mərkəzində "Robinzon və 9 Cümə" Azərbaycan-gürcü filminin qala-premyerası keçirilib. Filmin çəkilişləri Bakıda, Tbilisidə və başqa şəhərlərdə baş tutub.

Rejissor Georgi Kikalişvilinin bu komediya layihəsində Vaxtanq Kikabidze, İrakli Pirtsxalava, Keti Topuriya, Arçil Meparidze, Nani Breqvadze, Kaxi Kavsadze, Paata Quliaşvili, Dato Xucadze və başqaları çəkiliblər. Filmdə həmçinin Polad Bülbüloğlu, Bəhram Bağırzadə, Manana Çaparidze də rol alıblar.

Filmin Bakı premyerasında Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, "Rabinzon və 9 Cümə"nin yaradıcı heyəti və layihədə rol alan azərbaycanlı aktyorlar iştirak etmişlər.




## GÜRCÜ ÇURÇXELASI NECƏ HAZIRLANIR



Kim bu gürcü şirniyyatını dadıbsa, onun necə dadlı və kalorili məmulat olduğunu bilir. Oxucularımıza qatılaşdırılmış üzüm şirəsindən və sapa düzülmüş qoz ləpəsindən hazırlanan milli gürcü şirniyyatı çurçxela barədə məlumat vermək istəyirik. Qeyd edək ki, biz bu təamı sucuq adlandırırıq.

Çurçxela kalorili və xeyirli çərəzdir. Onun hazırlanması kifayət qədər zəhmət tələb edir və bir neçə əməliyyatdan ibarətdir: qoz ləpəsinin hazırlanması, "tatara" və ya "pelamuş"un (üzüm şirəsi qatışığı) qaynadılması, çurçxelanın hazırlanması və qurudulması. Xatırladaq ki, çurçxela dünyanın 10 ən dadlı çərəzi siyahısına daxil edilib.

Qoz ləpəsi bir çox gürcü yeməklərinin, o cümlədən də şirniyyatların təməlini təşkil edir. Çurçxelaya gəlincə, qoz ləpəsini 20-25 santimetrlik möhkəm ipə düzmək və quruması üçün bir neçə gün asmaq lazımdır.

"Tatara" hazırlamaq üçün təbii ağ və ya qırmızı üzüm şirəsi götürüb, üzərinə qarışdıraraq yavaş-yavaş qarığdalı və ya buğda unu əlavə etmək, sonra isə zəif odun üstünə qoymaq lazımdır. Kütlə qatılaşdıqda sapa düzülmüş qoz ləpəsini onun içərisinə salmaq və yavaş-yavaş çıxarmaq tələb olunur. Bununla da çurçxelanın hazırlanması sonuncu qurudulma mərhələsinə daxil olur. Buyurun, bundan sonra çərəz istifadəyə hazırdır.

## "DAVİD QARECİ" MONASTIR KOMPLEKSİ BƏRPA OLUNACAQ



Gürcüstanın regionların inkişafı və infrastruktur nazirliyinin bələdiyyələrin inkişafı fondları sektoru Gürcüstan hökumətinin və Ümumdünya bankının maliyyə dəstəyi ilə David Qareci monastır kompleksinin bərpasını həyata keçirmək niyyətindədir.

Nazirlikdə belə hesab edirlər ki, layihə Gürcüstanda mədəni irsin qorunmasına və turizm infrastrukturunun inkişafına kömək edəcək.

Gürcü pravoslav monastır kompleksi olan David Qareci Şərqi Gürcüstanda Qareci dağının yamaclarındakı qayalarda yonulub. Sıldırım qayalarda yerləşən kompleks özündə yüzlərlə hücrə, kilsə, yeməkxana və yaşayış mənzillərini birləşdirir.

Layihə su təchizatı, kanalizasiya və elektik təchizatı sistemlərinin təşkil olunmasını, monastır kompleksi binasının fasadının yenidən qurulmasını, turistlərə yardım mərkəzinin, habelə avtomobil dayanacağının yaradılmasını təmin edəcək.

Layihənin dəyəri 1 milyon lari olacaq, onun həyata keçirilməsində 30 nəfər çalışacaq.

## ƏJDƏR OLUN ŞEİRLƏRİ GÜRCÜ DİLİNDƏ



Tbilisidə gürcüdilli "Literaturuli qazeta" ("Ədəbi Gürcüstan") qəzetinin 19 fevral 2016-cı il tarixli sayında tanınmış Azərbaycan şairi və yazıçısı Əjdər Olun həyat və yaradıcılığı barədə qısa məlumat və şeirlərindən nümunələr verilmişdir. Onu da qeyd etmək lazımdır ki, Əjdər Olun adı gürcü oxucularına yaxşı tanışdır. Onun "Tarla komandirinin meymunu" adlı hekayələr toplusu 2012-ci ildə Tbilisidə gürcü dilində nəşr olunmuşdur. Şeirləri gürcü dilinə Mirzə Məmmədoğlu və Aleko Qabelaya çevirmişdir. Onu da qeyd edək ki, Aleko Qabelaya bir neçə il bundan əvvəl Məmməd Arazın Tbilisidə gürcü və Azərbaycan dillərində nəşr olunan kitabının tərcüməçilərindən biridir.

Əjdər Olun şeirlərinin tərcüməçilərindən biri, Gürcüstan Yazıçıları Milli Akademiyasının Azərbaycan bölməsinin rəhbəri Mirzə Məmmədoğlu demişdir:

- Gürcüstan Yazıçıları Milli Akademiyasının orqanı olan bu qəzetdə son vaxtlar soydaşlarımızın yaradıcılığına da vaxtaşırı yer verilir. Bundan öncə qəzetdə Eyvaz Zeynallının hekayəsi, Sabir Rüstəmxanlının, Rəşid Faxralının, Nurafizin şeirləri , gürcü və Azərbaycan dillərində yazıb yaradan Almaz Mirzəoğlunun hekayələri dərc edilmişdir. Onu da qeyd edim ki, bu günlərdə məşhur gürcü türkoloqu, Azərbaycanın əməkdar mədəniyyət işçisi, "Kitabi-Dədə Qorqud"un gürcü dilinə tərcüməçilərindən biri Elizbar Cavelidzenin "Füzuli" monoqrafiyası birgə şəkildə gürcü və Azərbaycan dillərində, Sabir Rüstəmxanlının "Ölüm zirvəsi" romanı gürcü dilində bu günlərdə oxucuların ixtiyarına veriləcəkdir. Orxan Paşa təxəllüsü ilə şeirlər yazan Məhərrəm Qasımlının şeirlərinin gürcü dilinə tərcüməsi üzərində işlər aparılır. Cəlil Məmmədquluzadənin hekayələr kitabı gürcü dilində çapa hazırdır. Yeri gəlmişkən qeyd edim ki, dövlət tərəfindən heç bir maliyyə dəstəyi almayan bu yazıçılar birliyində gürcü-Azərbaycan ədəbi əlaqələri sahəsində yalnız təşəbbüskarlıq sayəsində müəyyən işlər görülür.

## TBİLİSİDƏ İLK MİNİ ZOOPARK AÇILDI

Gürcüstan paytaxtında ilk ələqə mini zooparkı açılıb. Burada onlarla balıq və heyvan növləri nümayiş etdirilir. Zooparkın ən nəhəng yetişdirməsi Emu adlı dəvəquşudur.

Tbilisinin düz mərkəzində yerləşən zooparkın ilk açılış günündə yüzlərlə Tbilisi sakini və Gürcüstan paytaxtının qonağı buraya baş çəkib. Ələqə mini zooparkı uşaqlarda xüsusi hisslər yaradır. Axı burada heyvanlarla oynamaq, onları əlinə götürmək və tumarlamaq mümkündür. Ev dovşanları tamaşaçıların sevimlisidir. Daha sonra cücələr və tısbağacıqlar gəlir. İlan terrariumlarının və balıq akvariumlarının qarşısında ziyarətçilər o qədər də çox deyillər.

Təsisçi:
"Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı"

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.